02_27 IYUl-QARA.qxd 1/16/2025 10:11 PM Page 1

UNİKAL

№02 (2232) 17 yanvar 2025-ci il
Qiyməti 50 qəpik
Qurucusu: Asəf Rzayev
www.unikal.az



# Hökumətdə islahatların yeni dalğası başlayır



Səh.8

## Hacıbala Abutalıbovun büdcəyə 3 milyon manatlıq ziyanı

*Yola salmaq üzrə olduğumuz həftə xəbər yayıldı ki, Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) mülkiyyət hüququnun pozuntusuna görə Azərbaycanın 1 milyon 693 min 892 avro (3 milyon manata yaxın) məbləğində təzminat ödəməsinə dair qərar çıxarıb.*

*"Haqqin.az"ın məlumatına görə, məhkəmə sözügedən qərarı Bakıda "Qış parkı"nın inşası zamanı evdən çıxarılan sakinlərin ifadələri əsasında verib.*

*Qeyd olunub ki, 2008-ci ildə Bakı şəhər İcra Hakimiyyətinin başçısının göstərişi ilə Füzuli, Səməd Vurğun, Şəmsi Bədəlbəyli və Topçubaşov küçələrində 500-dən çox yaşayış və qeyri yaşayış sahəsi sökülüb, sakinlər isə köçürülüb.*

*Sakinlər mülkiyyət hüquqlarına müdaxilədən şikayət edərək ədalətli məhkəmə prosesinin aparılmasını tələb ediblər.* Səh.10

## "Bəzi ailələr övladlarına tərbiyə verə bilmirlər"



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, son vaxtlar şagirdlərin törətdiyi cinayət hadisələrinin artmasından, bir sıra məktəblərdə şagirdlərin telefondan istifadəsinin qadağan olunmasından və bu il ali məktəblərə daha çox tələbə qəbulunun...*

Səh.4

## Deputata 20 milyon manatlıq şok



*VII çağırış Milli Məclisin deputatı seçilən və "Kaspian Audit Kompani" MMC-nin direktoru olmuş Əlibala Məhərrəmzadə Qubadakı məşhur "Şahdağ Quba Turuskavets" Sanatoriyasını borc əvəzinə təhvil verib. Bu barədə Gunnsesi.info-ya iş adamına yaxın mənbələr bildirib.*

Səh.7

## İctimai və dövlət maraqları sosial platformada necə qorunur?



*Sosial şəbəkələrin populyarlaşması dövlət və ictimai maraqların sosial platformalarda da qorunmasını vacib edir. Son vaxtlar insanların kütləvi şəkildə daxil olduğu "Tiktok" sosial şəbəkəsində dövlət və ictimai maraqların müdafiəsi baxımından demək olar ki, səhifələrə, siyasi şərhlərə, siyasətçilərə...*

Səh.11

02_27 IYUI-QARA.qxd 1/16/2025 10:12 PM Page 2



# Çimnaz Sultanovanın ölüm səbəbi bilindi

**Bakı Sağlamlıq Mərkəzinin Xarici əlaqələr və marketinq şöbəsindən "Unikal"a verilən məlumata görə, 15.01.1980-ci il təvəllüdlü Heybətova (Sultanova) Çimnaz Mütəllim qızı dəfələrlə Bakı Sağlamlıq Mərkəzində 2021-ci ildən etibarən (4 il ərzində) altı dəfə tibbi xidmət alıb.**



Onun sözlərinə görə, 2021-ci ilin mart, iyul aylarında, 2023-cü ilin iyul ayında, 2024-cü ilin aprel, oktyabr və noyabr aylarında stasionar cərrahi müalicədə olub: "İlk müraciət etdikdə qarın boşluğunun böyük ölçülü törəməsi səbəbindən bağırsaq keçməzliyi diaqnozu ilə qəbul edilib. Böyük ölçülü törəmənin kəsilib götürülməsi, bağırsaq keçməzliyinin ləğvi əməliyyatı icra edilib. Patohistoloji müayinə zamanı "Leyomiosarkoma" təsdiq edilib. Xəstə kafi vəziyyətdə evə yazılıb və onkoloqun nəzarətinə göndərilib. Onkoloji mərkəzdə radioterapiya qəbul edib. Növbəti dövrlərdə eyni xəstəliyin qarın boşluğunun müxtəlif orqanlarına metastazı, bağırsaq keçməməzliyi, kəskin qarın əlamətləri ilə müraciət edib və cərrahi müalicələr alıb. Əməliyyatdan sonra hər dəfə onkoloqun nəzarətinə göndərilib. İkinci əməliyyatından sonra da kimyaterapiya qəbul edib".

Ç.Sultanova sonuncu müraciətində stasionar cərrahi müalicədə olunub. Əməliyyatdan sonra xəstə kafi vəziyyətdə evə yazılıb. Son günlərdə klinikamıza müraciət etməyib.

"Xəstə özü və xəstəliyi barəsində məlumatların konfidensiallığının qorunmasını tələb edib. Biz rəsmi araşdırmalarının aparılması və müvafiq ekspertizanın keçirilməsinə hazırıq", müraicətdə deyilib.

# "Damlanı hər yerə yanımda aparıb, tanıdan mən olmuşam" - Aytac Vidadiqızı

***"Mənim üçün dostluq müqəddəsdir, onun üçün olmaya bilər".***



Bu sözləri müğənni Aytac Vidadiqızı qonaq olduğu "Rəngarəng" verilişində deyib. Həmkarı Damlanı hədəf alan sənətçi zamanın ona çox dəstək olduğunu hazırda isə münasibətlərinin olmadığını etiraf edib.

Damlanı dostuğun dəyərini bilməməkdə günahlandıran Vidadiqızı etdiklərinə bir-bir sayaraq, ona keçmişini xatırladıb: "Onunla hazırda münasibətimiz yoxdur. Efirdə deyir ki, bu sənətdə dostluğum olmayıb. İnsan keçmişini unutmaz. Damlanı məclislərə, hər yerə yanımda aparırdım. Ona uğurlar arzu edirəm. Damla tanınmadan öncə də onun səsini bəyənirdim. Hara gedirdimsə, deyirdim ki, yanımda sənətçi xanım var, o da gələcək. Efirlərə bir yerdə çıxmışıq, eyni yerdə qalmışıq".

# Xalq artisti yarım milyonluq iddiasından vaz keçdi

***Xalq artisti Ağadadaş Ağayevin "Medera Hospital"a qarşı mülki iddiası əsasında məhkəmə prosesi yekunlaşıb.***



Binəqədi Rayon Məhkəməsində hakim Etibar Mustafayevin sədrliyi ilə keçirilən prosesdə tərəflərin barışıq əldə etdiyi barədə hakimə məlumat verilib.

Bildirilib ki, notariusda barışıq əldə olunub və tərəflər bir-birinə qarşı olan mülki iddiadan imtina ediblər.

Daha sonra məhkəmə iddiadan imtina edildiyi üçün icraata xitam verilməsi barədə qərar qəbul edib.

Qeyd edək ki, ötən ilin iyul ayında Xalq artisti Ağadadaş Ağayevlə "Medera Hospital"ın mühafizəçisi Nurəddin Cəlilov arasında insident baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb, balta klinikada çalışan N.Paşayevaya dəyərək xəsarət yetirib.

Mühafizəçi Nurəddin Cəlilov isə Xalq artistini döyüb. Ağadadaş Ağayev "Medera Hospital"ı mülki hüquq pozuntularından yaranan öhdəliklər üzrə mübahisələr - mənəvi zərərin ödənilməsi üçün məhkəməyə verib.

Öz növbəsində, "Medera Hospital"ın rəhbəri Qaraxan Əliyev də Ağadadaş Ağayevə qarşı iddia qaldırıb. Müğənni mənəvi ziyana görə klinikadan 450 min manata yaxın, hospital isə Ağadadaş Ağayevdən 500 min manat pul tələb edib.

Qeyd olunan insident üzrə başlanmış cinayət işinə də Binəqədi Rayon Məhkəməsində baxılıb.



# "Qayınanamın ayaqlarından öpərəm" - Mətanət Əsədova

***"Qayınanaya pis baxmasınlar, ürəyim ağrıyır. Qayınana da bir anadır, hamısına quzu kəsərəm. Qayınanam olsa ayaqlarından öpərəm, ayaqlarını suya qoyub, başına pərvanə kimi dolanaram. Çünki öz anamı da elə etmişəm".***

Bu sözləri müğənni Mətanət Əsədova "Qonaqcanlı" verilişində deyib. Sənətçi qayınanalardan danışıb.

"Düzgün deyil, anadır, nə olacaq nazı ilə oynasan? Axşam başına sığal çəkib, "gecən xeyrə qalsın" desən nə olacaq?" deyə, Mətanət əlavə edib.

# Hüseyn Zeynəb Xanlarova və Polad Bülbüloğlu ilə bir arada

***Xalq artisti Zeynəb Xanlarovanın yeni görüntüsü yayılıb.***



Şəkli klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu sosial şəbəkə hesabında paylaşıb. Fotoda Xalq artisti, deputat Polad Bülbüloğlu da yer alıb.

"Dünya şöhrətli Zeynəb xanım və Polad Bülbüloğlu" deyə, Hüseyn paylaşımında yazıb.

# "10 minim olsa, kasıblara verərəm" - Bahar Lətifova

***Müğənni Bahar Lətifova Yeni il üçün 10 minlik şam ağacı alması xəbərinə cavab verib.***



Sənətçi həmin məbləğdə pulu olsa ehtiyacı olanlara verəcəyini bildirib.

"Kimin ağlına nə gəlirsə, onu da deyir. Ürəklərindən keçib, yazıblar. Mənim tanıyırsınız, o qədər pulum olsa, ehtiyacı olanlara yardım edərəm. Hamıya arzu edirəm ki, 10 minləri o qədər çox olsun ki, imkansızlara yardım etsinlər, "yolka"ya verməsinlər".

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:13 PM Page 3





# Pensiyaların neçə faiz artırılacağı açıqlandı

***"Bu gün Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2024-cü ilin ilk 11 ayında ölkə üzrə orta aylıq əmək haqqı 8.0 faiz artaraq 996.8 manata çatıb. Bu isə o deməkdir ki, ötən ilin yekun əməkhaqqı artımının təxminən 8.0 faiz olacağı gözlənilir. "Əmək pensiyaları" haqqında qanuna əsasən, bütün növ əmək pensiyaları əvvəlki ildə orta aylıq maaşdakı artım faizinə indeksasiya olunaraq artırılır".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, indeksləşdirmə nəticəsində 1 milyon 100 min vətəndaşımızın pensiyalarında artımlar olacaq:

"Bu artımların ödənilməsi məqsədilə əlavə təxminən yarım milyard manat vəsait nəzərdə tutulub. İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları" haqqında qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Qanunvericiliyə əsasən, indeksləşdirmə əvvəlki ilin göstəricisinə uyğunlaşdırıldığına görə 2024-cü ilin dekabrın 31-i daxil olmaqla ötən il pensiya hüququ qazanan bütün vətəndaşların pensiyaları artırılacaq. Belə ki, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2024-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğ artırılır".

Deputat qeyd edib ki, 2024-cü ildə orta aylıq əmək haqqında artımla bağlı rəsmi statistika fevral ayının ilk 10 günündə bəlli olduğu üçün indeksasiya da məhz o zaman aparılacaq: "Pensiya artımları yanvarın 1-dən hesablanır, amma artımlar fevral ayında ikisi birlikdə ödəniləcək. Deməli, pensiyaçılar artımları gələn aydan etibarən alacaqlar. Amma yanvar ayı üçün hesablanmış artım da fevral ayının pensiya məbləğinə əlavə olunacaq".

***Anar Kəlbiyev***

# Hökumətdə islahatların yeni dalğası başlayır

## Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və Dövlət Vergi Xidməti birləşdiriləcəkmi? - İddialar, ehtimallar...

***Azərbaycanda idarəetmənin optimallaşdırılması və rasionallaşdırılması üçün yeni addımlar atılması gözlənilir. Söhbət bir neçə qurumun birləşdirilməsindən gedir. Artıq bir müddətdir Dövlət Gömrük Komitəsinin, Maliyyə Nazirliyi və Dövlət Vergi Xidmətinin birləşdiriləcəyi ilə bağlı fikirlər səsləndirilir. Bunun nə qədər real olub-olmadığını zaman göstərəcək, lakin Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramovun "Unikal"a açıqlamasından da aydınlaşıb ki, 2025-ci ildə Azərbaycanda iqtisadi islahatların dərinləşəcəyi gözlənilir.***

O qeyd edib ki, instutisional islahatlarla bağlı Prezident İlham Əliyev tərəfindən bir neçə sərəncamlar imzalanıb: "Bu ilin Azərbaycanda yeni dövrün hədəflərinə uyğun olaraq islahatların dərinləşməsi ili kimi yadda qalacağı gözlənilir. Xüsusilə, idarəetmə sisteminin çevikliyinin artırılması ilə bağlı fəaliyyətlər davam etdiriləcək. Dövlət gəlirlərinin formalaşması, onların xərclənməsi ilə bağlı islahatlar da müzakirə edilən məsələlərdəndir. Müxtəlif ölkələrdə fərqli modellər var. Bir sıra qonşu ölkələrdə həm vergi yığma, həm də xərcləmə ilə bağlı vahid instutisional qurumlar fəaliyyət göstərir. Bəzi ölkələrdə Milli Gəlirlər Xidməti var və həmin xidmət bütün vergilərin toplanmasına məhsul qurumdur. Bəzilərində isə gömrük və vergi sistemləri ayrıdır. Azərbaycan da daha çevik modelin tətbiqini həyata keçirən ölkələrdəndir. Bu baxımdan, islahatların davam edəcəyi gözlənləndir. Sözsüz ki, institusional istiqamətdə qəbul edilən qərarlarla bağlı da mütəmadi məlumatlar təqdim olunacaq".

Xatırladaq ki, yanvarın 10-da Prezident İlham Əliyevin Sərəncamı ilə maliyyə naziri Samir Şərifov 2006-cı ilin aprel ayından etibarən tutduğu bu vəzifədən azad edilib. Dövlət başçısının imzaladığı digər Sərəncamla o, Baş nazirin müavini təyin olunub.Həmin qərarın ardından isə Dövlət Gömrük Komitəsinin, Maliyyə Nazirliyi və Dövlət Vergi Xidmətinin birləşdiriləcəyi ilə bağlı iddialar yenidən aktuallıq qazanıb. Bir çox iqtisadçı ekspertlər belə bir optimallaşdırmanı mümkün, hətta zəruri sayır. Məsələn, Xalid Kərimli bildirib ki, Dövlət Gömrük Komitəsi də vergi xidməti kimi faktiki olaraq vergi toplamaqla məşğuldur. İqtisadiyyat Nazirliyinin daxilində Dövlət Vergi Xidmətinin olması da səhvdir. Çünki vergilər xidmətində məqsəd vergi toplamaq, büdcəni doldurmaqdır. İqtisadiyyatın məqsədi isə iqtisadiyyatı inkişaf etdirməkdir.

Ekspert mümkün optimallaşma ilə bağlı vurğulayıb ki, Dövlət Gömrük Komitəsi ilə Vergi Xidməti yaxşı olardı ki, Maliyyə Nazirliyinə birləşdirilsin. Sitat: "Çünki Maliyyə Nazirliyi gəlirləri toplayıb, xərcləyən qurumdur. Əgər bu birləşmə baş verməzsə Dövlət Vergi Xidməti ilə Dövlət Gömrük Komitəsini iki qurum olaraq birləşdirərək Dövlət Gəlirlər Komitəsi yaratmaq mümkündür. Bu birləşmə inzibatçılığa kömək etmiş olacaq. Nəticədə hər iki qurumun informasiya bazasının bir-birilərində olması ilə vergi toplama, sahibkarın şəffaf işləməsi təmin ediləcək, beləcə düzgün gəlirlər siyasətinin həyata keçirilməsi və şəffaflığın artmasına zəmin yaradacaq, həmçinin inzibati aparatın kiçilməsinə də gətirib çıxaracaq. İndi hər departamentin bir müdiri, bir neçə köməkçisi, assistenti varsa, birləşmə onların sayının da azalmasına gətirib çıxaracaq".

Xatırlatmaq yerinə düşər ki, son illərdə bir sıra nazirliklərin və komitələrin, habelə, yerli icra orqanlarının sayının azaldılması, onların bəzilərinin ləğv edilməsi, təşkilati-hüquqi formasının dəyişdirilməsi, birləşdirilməsi həyata keçirilib. Burada məqsəd dövlət idarəetmə strukturlarının optimallaşdırılması ilə yanaşı, idarəetmədə təkrarçılığın və paralelliyin aradan qaldırılması, büdcədən maliyyələşdirilən mərkəzi icra orqanlarının sayının azaldılması, oxşar profilli idarəetmə orqanlarının birləşdirilməsi, çoxpilləli idarəetmə quruluşunun ləğv edilməsi, inzibati xərclərin azaldılması, bu sahədə dövlət büdcəsinin vəsaitlərinin səmərəli istifadə edilməsi, xüsusilə də büdcə xərclərinin tərkibində idarəetmə xərclərinin xüsusi çəkisinin azaldılmasıdır.

Rəsmi açıqlamalarda dəfələrlə vurğulanıb ki, aparılan islahatlar sırasında iqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına xidmət edən başqa addımların atılması da nəzərdə tutulur. Dövlət Gömrük Komitəsinin, Maliyyə Nazirliyi və Dövlət Vergi Xidmətinin birləşdirilməsi həmin addımlardan biri



ola bilər.

Qeyd edək ki, əslində son zamanlar Dövlət Gömrük Komitəsi və Dövlət Vergi Xidməti daxilində müəyyən kadr islahatları aparılıb. Lakin hələ də hər iki qurumla bağlı şikayətlər, xüsusilə də sahibkarların, iş adamlarının narazılıqları səngiməyib. Təsadüfi deyil ki, hətta axır iki ildə Dövlət Gömrük Komitəsində çox sayda vəzifəli şəxs saxlanılıb, barələrində cinayət işi başlanıb. Belə aydın olur ki, adları çəkilən qurumların rəhbərliyindəki dəyişikliklər lazımi effekt vermir, bu orqanların yeni dövrün çağırışlarına uyğun olaraq tamamilə şəffaf, düzgün, səmərəli fəaliyyət göstərməsinə gətirib çıxarmır. Məhz sadalananları nəzərə alıb birləşmə qərarının verilməsi real görünür.

Bu yerdə bir müddət öncə anti-inhisar qurumu ilə bağlı baş verənləri yada salmağı gərəkli bilirik. Hələ 2018-ci ildə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi müvafiq dövlət xidmətləri statusunda İqtisadiyyat Nazirliyinin strukturuna daxil edildi. Ardınca Dövlət Xidməti statusu alan qurumun 6 illik fəaliyyəti ürəkaçan olmadı. Ölkədə rəqabət mühitinin zəifliyindən, inhisarçı şirkətlərin və iş adamlarının hələ də bazardakı hegemoniyasından şikayətlər gəlirdi. Nəticədə ötən il İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ləğv olundu, onun əsasında isə ölkə rəhbərinin yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradıldı. Yəni inhisarçılığa qarşı mübarizə bundan sonra birbaşa Prezidentin nəzarətində olacaq.

Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və Dövlət Vergi Xidmətinin aqibəti ilə bağlı başqa bir ehtimal da antiinhisar qurumu ilə bağlı yuxarıdakı təcrübənin adları çəkilən üç qurumun nümunəsində də davam etdiriləcəyidir.

***Toğrul Əliyev***

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:13 PM Page 4



# Azərbaycandan Ermənistan XİN-ə sərt reaksiya

*Bütün faktlar sübut edir ki, Ermənistan işğalını mümkün hesab etmədiyi Azərbaycan ərazilərindən ermənilərin köçünü təşkil edərək, iki xalqın nümayəndələrinin dinc yanaşı yaşamaq təcrübəsini aradan qaldırmağı və Ermənistanda mono-etnikdövlət yaratmağı hədəfləmişdir*

***Ermənistanın hazırkı Xarici İşlər Nazirliyi öz sələflərinin təcrübəsini davam etdirərək, uydurma açıqlamalar verməklə məşğuldur.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan XİN-in bəyanatı ilə bağlı şərhində deyilir.

”Ermənistan Xarici İşlər Nazirliyinin guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız bəyanatı bu ölkənin Azərbaycana qarşı sistematik etnik nifrət və dözümsüzlük siyasətinin hələ də davam etdirildiyini göstərir. Ermənistan XİN-ə xatırladırıq ki, etnik təmizləmə və kütləvi qırğın siyasəti məhz Ermənistana və ermənilərə xas xüsusiyyətdir. 20-ci əsrin əvvəllərindən 1920-ci illərin əvvəllərinə qədər azərbaycanlılara qarşı bir milyondan çox Azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədini güdür. Ermənilərin saxta propaqandasının tərkib hissəsi olan uydurma ”Sumqayıt qırğınları”nın Azərbaycanlıların deportasiyası və kütləvi şəkildə qətlə yetirilməsinə haqq qazandırmaq üçün ermənilərin düşünüb hazırladığı və Eduard Qriqoryan vasitəsilə icra olunan bir plan olduğunu bütün dünya bilir. Bakı nefti və Azərbaycanın zənginliklərinin hesabına varlanan və qazandıqları vəsaitləri azərbaycanlıların qırğınına və tarixi abidələrinin məhvinə xərcləyən ermənilərin kompensasiya almaq hüququnun olduğunun iddia olunması isə absurd təfəkkürdən xəbər verir. Ermənistan tərəfindən tarixi kütləvi şəkildə saxtalaşdıran təbliğat sülhə xidmət etmir və təhlükəlidir”, - A.Hacızadə qeyd edib.



təmizləmə siyasətinin böyük hissəsinin aparıldığı dövrə təsadüf edən Levon Ter-Petrosyanın prezident qismində 1993-cü ildə etdiyi məlum çıxışı azərbaycanlılara qarşı etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu bir daha təsdiq edir. Həmçinin xatırlatmaq yerinə düşür ki, L.Ter-Petrosyan həmin çıxışında Azərbaycan SSR-dən ermənilərin köçünün məhz Ermənistanın özü tərəfindən təşkil edildiyini də bildirib. L.Ter-Petrosyanın çıxışından müvafiq çıxarışı aşağıda veririk: “Hərəkat vaxtında başlamasaydı, bu gün Azərbaycanda 500 min erməni qalacaqdı. Onlar fiziki cəhətdən məhv edilməsələr belə, bu, Ermənistanı diz çökdürmək üçün ən güclü rıçaq olardı. Onların əhəmiyyətli bir hissəsi, 300 mindən çox insan Ermənistanda sığınacaq tapdı. Bu da milli problem idi, hərəkatımız sayəsində həyata keçirilən kütləvi qırğınlardan və sürgünlərdən əlavə, 1948-1953-cü illərdə və 1987-ci ildən başlayaraq Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından ümumilikdə 450 min nəfərdən çox azərbaycanlının kütləvi surətdə qəddarcasına deportasiya edilməsi faktları Ermənistan tərəfinə yaxşı məlumdur. Ermənistan XİN-i bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində həll olunan böyük miqyaslı problem”.

Qərbi Azərbaycan İcması da Ermənistan XİN-nin bəyanatına reaksiya verib. Bəyanatda qeyd olunub ki, Ermənistan Respublikası Xarici İşlər Nazirliyinin 2025-ci il yanvarın 15-də verdiyi, Azərbaycan SSR-də ermənilərə qarşı qanunsuzluq törədildiyini iddia edən əsassız və böhtan dolu bəyanatını qınayırıq. Bəyanatın tonu, həm də Ermənistanın İkinci Qarabağ müharibəsindən əvvəlki ritorikasını xatırladır.

“Əvvəla vurğulayaq ki, etnik təmizləməni törədən dövlət Ermənistandır. Hakimiyyət illəri Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı etnik

Bütün bunlar sübut edir ki, Ermənistan işğalını mümkün hesab etmədiyi Azərbaycan ərazilərindən ermənilərin köçünü təşkil edərək, iki xalqın nümayəndələrinin dinc yanaşı yaşamaq təcrübəsini aradan qaldırmağı və Ermənistanda mono-etnik dövlət yaratmağı hədəfləmişdir. Ermənistan hökuməti böhtan və nifrət dolu bəyanatlar vermək əvəzinə, irqçiliyinə və mono-etnik siyasətinə son verməli, Qərbi azərbaycanlıların qayıdışına şərait yaradaraq, oradakı multietnik mühiti bərpa etməlidir”, - bəyanatda vurğulanıb.



# ABŞ-la "strateji tərəfdaşlıq" Ermənistana başağrısı olacaq

***“Ermənistan Azərbaycanla sülh müqaviləsi bağlamadan, Türkiyə ilə normallaşma prosesinə getmədən ABŞ-la ”strateji tərəfdaşlıq” xartiyasını imzalaması danışıqlar prosesində mövqeyini gücləndirməsinə hesablanıb”.***

“Unikal” xəbər verir ki, bu fikirləri Milli Cəbhə partiyasının başqanın müavini, siyasi ekspert Məhəmməd Əsədullazadə səsləndirib. O bildirib ki, bu siyasət Yerevanın əleyhinə işləyə bilər: “Ermənistan tərəfi praqmatik siyasət ortaya qoyarsa, Azərbaycanla sülh müqaviləsi bağlayarsa, bu sazişin Yerevan üçün müsbət nəticələri olacaq. Amma, regionda Azərbaycanla və Türkiyə ilə düşmən siyasəti davam etdirməsi, növbəti mərhələdə İran da bu sazişə etiraz edəcək. Həmçinin Gürcüstanın avrointeqrasiya siyasətindən imtina etməsi Yerevanın hazırkı siyasətini dəstəkləməyəcək. Rusiya da Ermənistanla iqtisadi və enerji sahəsində əməkdaşlığı aşağı səviyyəyə salacaq. Ermənistan bütün qonşularla düşmən olub, okeanın otayı ilə iqtisadi -siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığı mümkün deyil. Ümumiyyətlə, belə bir sazişdən ABŞ-la Gürcüstan arasında bağlanıb. Ermənistan hakimiyyəti eyforiyaya girib hərbi təxribatlara əl atarsa, bunun mənfi nəticələri olacaq”.

Mövzu ilə bağlı fikirlərini bölüşən siyasi şərhçi Aqşin Kərimov isə hesab edir ki, bu sənəd ABŞ-nin yeni variantlar üzrə Cənubi Qafqazdakı diplomatiyası və strategiyasına yön verir. Lakin sənədin Ermənistanı qorumaq və təhdidlərdən sığortalamaq gücü yoxdur. Onun fikrincə, Ermənistan faktiki olaraq güc rəqabətində dönüş yaratmaq istəyən qüvvələrin poliqonudur - bir tərəfdə Rusiya hərbi bazası, digər tərəfdə isə Avropa İttifaqı Missiyası, digər yanda isə ABŞ-nin gözlənilən sərhəd missiyasıdır: “Azərbaycanın Ermənistanla sərhəddə aşkar və təqdim edilməyən hərbi-strateji üstünlükləri, Bakının Ankara ilə strateji müttəfiqlik fonunda Ermənistanda nüfuz dairəsinə daxil olmaq təşəbbüsləri ABŞ-nin mümkün hərbi müdaxilə imkanlarını heçə endirir. İranın Azərbaycan və Türkiyə ilə sövdələşmə zəruriliyini dərk etməsi prosesi sürətlənir və bu, Ermənistanın perspektivlərini pisləşdirir.

İkincisi, Azərbaycanın Rusiya və Çin ilə müttəfiqlik münasibətləri, NATO ilə tərəfdaşlıq əlaqələri dərinləşir, bunun fonunda ABŞ Ermənistanla əlaqələrdə təhlükəsizlik və müdafiə əməkdaşlığını gücləndirməkdə çətinlik çəkəcək. Bu baxımdan:

- ABŞ-nin bir neçə istiqamət üzrə gücünü səfərbər etməsi Vaşinqton üçün problemli və mürəkkəb situasiyalar yaradır,
- Ağ Evin regionda həm Çin, həm Rusiya ilə rəqabət arenasını idarə etməsi çətindir, Gürcüstandakı proseslər fonunda bu, daha aydın bir şəkildə izah oluna bilər.
- NATO ilə Azərbaycanın tərəfdaşlıq münasibətləri ABŞ-ni Xəzər dənizi ilə əlaqədar məsələlərdə Azərbaycanın maraqlarını ifadə etməsini zəruri edir. Bu, Donald Tramp administrasiyasında Cənubi Qafqaz üzrə siyasətin “dəniz əsaslı geosiyasət” mənzərəsini ortaya qoya bilər,
- Ehtimalla ABŞ oxşar tərəfdaşlıq sənədini Azərbaycanla da imzalamaqla balansı saxlamağa çalışacaq”.

Üçüncü tərəf isə sazişin icrası Ermənistanın məhdud imkanlarını nəzərə almır və onu qarışıq və mürəkkəb situasiyalarda daha problemli sahələrə yönləndirir. Şərhçi deyir ki, bu, Azərbaycan-Ermənistan sərhədindəki mümkün eskalasiya riskləri və onların nəticələrində görünə bilər. Bununla belə: “Tramp administrasiyası ABŞ-nin Azərbaycan-Ermənistan sülh gündəliyində intensivliyi təmin etmək üçün Bakı-İrəvan ali səviyyəli danışıqlarına ev sahibliyi edə bilər. Lakin bu, hər iki tərəfdə danışıqlar aparmaq üçün siyasi iradələri stimullaşdıracaq və açıq qalan məsələlərin həllindən uzaq düşəcək”.

**_Seymur Əli_**

02_27 IYUI-QARA.qxd 1/16/2025 10:13 PM Page 5



# "Rəqəmsal İnkişaf Konsepsiyası" təsdiqləndi - Fərman

***Prezident İlham Əliyev "Rəqəmsal İnkişaf Konsepsiyası"nı təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb. Fərmana əsasən, Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Nazirlər Kabineti, Rəqəmsal İnkişaf Operatorunun funksiyalarını Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

Ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, digər dövlət orqanları (qurumları) tərəfindən dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi üzrə layihələrin (büdcədənkənar dövlət fondlarının vəsaitləri hesabına həyata keçirilən layihələr istisna olmaqla) maliyyələşdirilməsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəyi (Maliyyə Nazirliyi ilə razılaşdırmaqla) əsasında təmin edilir.



Nazirlər Kabineti dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi ilə bağlı təkliflərini 9 ay müddətində hazırlayıb Prezidentə təqdim etməli, Konsepsiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə dövlət başçısına məlumat təqdim etməli, dövlət orqanları (qurumları) tərəfindən (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri, eləcə də Müşahidə Şurası Prezident tərəfindən formalaşdırılan dövlət müəssisələri istisna olmaqla) bu Fərmanda nəzərdə tutulmuş illik planın icrasına nəzarəti həyata keçirməli, rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarlarını beş ay müddətində müəyyən edib Prezidentə məlumat verməli, ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi qaydalarını, o cümlədən meyarlarını 5 ay müddətində müəyyən edib dövlət başçısına məlumat verməli, fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

# Sərhədlərin delimitasiyası üzrə komissiyaların 11-ci görüşü keçirildi



***2025-ci il yanvarın 16-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on birinci görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, görüş zamanı Tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib və dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikası və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılığa gəliblər.

Həmçinin Tərəflər delimitasiya işlərinin görülməsi qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.

Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Nazir müavini vəzifəsindən azad edildi

***Gənclər və idman nazirinin müavini Mariana Vasileva tutduğu vəzifədən azad olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı müvafiq sərəncam imzalanıb.

Xatırladaq ki, M.Vasileva 2021-ci ildə gənclər və idman naziri Fərid Qayıbovun müavini təyin olunmuşdu.

# YAP Mərkəzi Aparatında müşavirə keçirildi

***Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.***

"Unikal" xəbər verir ki, müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi bildirilib, qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla seçkiqabağı təşviqat kampaniyasının uğurla davam etdirildiyi və partiya fəallarının bu prosesə fəal cəlb olunduğu qeyd edilib, seçki prosesinin sonrakı mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılaraq müvafiq tapşırıq və tövsiyələr verilib.

Azərbaycanın demokratik dəyərlərə sadiq və zəngin seçki təcrübəsinə malik olduğu vurğulanaraq bələdiyyə seçkilərinin azad, şəffaf, ədalətli keçiriləcəyinə və Yeni Azərbaycan Partiyasının xalqın etimadı əsasında daha bir qələbəyə imza atacağına əminlik ifadə olunub.



# "İlk səfərimi Azərbaycana etməyim mənim üçün şərəfdir" - XİN rəhbəri

***Xarici işlər naziri kimi ilk səfərimi Azərbaycana etməyim mənim üçün şərəfdir. Azərbaycanla strateji tərəfdaşlıq Gürcüstan üçün əhəmiyyətlidir.***

"Unikal" xəbər verir ki, bunu Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşdən sonra keçirilən birgə brifinqdə deyib.

O bildirib ki, ölkələrimiz arasındakı əməkdaşlıq siyasi-iqtisadi münasibətlərdə yeni imkanlar yaradır.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5^A
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Xidmət rəisi 10 il azadlıqdan məhrum edildi

***Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində maliyyə xidmətinin rəisi vəzifəsində çalışmış və nazirliyin tabeliyində olan hərbi hissələrdə mənimsəmə faktına görə həbs edilən Cəbrayıl Orucovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

"Unikal" xəbər verir ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Cəbrayıl Orucov 2 il vəzifə tutma hüququndan məhrum edilməklə 10 il müddətinə azadlıqdan məhrum edilib.

Dövlət ittihamçısı R.Orucovun 11 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, Cəbrayıl Orucov Müdafiə Nazirliyində ümumilikdə 143 milyon manat mənimsəmədə təqsirləndirilən nazirliyin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadənin cinayət işi üzrə məhkəmə prosesində şahid qismində ifadə verməşdi.



Ötən müddətdə Cəbrayıl Orucov dövlət büdcəsinə vurulmiş ümumi ziyanın özünə çatan hissəsini ödəməyib.

Xatırladaq ki, Müdafiə Nazirliyində 143 milyon manat mənimsəmədə təqsirləndirilən şəxslər hər biri iki il müddətə maddi və rəhbər vəzifə tutmaq hüququndan məhrum edilib. Bundan başqa Nizami Məmmədov və Bayram Bayramov 11 il 6 ay, Cəlal Kazımov 11 il, Vüsal Əlizadə isə 10 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:13 PM Page 6



# Əli Əsədovdan hərbi xidmət yaşının endirilməsi ilə bağlı tapşırıq



***Azərbaycanda hərbi xidmətə çağırış və müddətli həqiqi hərbi xidmət keçməyə son yaş həddinin endirilməsinin tətbiqi üçün hazırlanan mexanizmlər Nazirlər Kabinetinə təqdim olunub.***

"Unikal" xəbər verir ki, bununla əlaqədar Baş nazir Əli Əsədov "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 87-VIIQD nömrəli Qanunun icrasının təmin edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilib ki, Ədliyyə Nazirliyi Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Prezidentin Təhlükəsizlik Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının yeni qanuna uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Qanuna uyğunlaşdırılmasını təmin edib, bu barədə altı ay müddətində Nazirlər Kabinetinə məlumat verməlidir.

Xatırladaq ki, Prezident İlham Əliyev hərbi xidmət haqqında müvafiq qanunlara edilən dəyişiklikləri 2024-cü il dekabrın 29-da təsdiqləyib. Həmin dəyişikliklərə əsasən, Azərbaycanda hərbi xidmətə çağırılanlar ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 30 yaşınadək Azərbaycanın kişi cinsli vətəndaşları olacaq. Qanun təsdiqlənənə qədər həmin yaş həddi 18 yaşından 35 yaşınadək idi.

Həmçinin, müvafiq olaraq Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçularının xidmət keçmək üçün son yaş həddi 36,5-dən 31,5-ə endirilib.

# Azərbaycanda kağız daşıyıcılardan tamamilə imtina olunacaq

***Azərbaycanda kağız daşıyıcılardan tamamilə imtina olunacaq. "Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nda əksini tapıb.***

Sənədə əsasən, Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası rəqəmsal texnologiyaların tətbiqi yolu ilə dövlət idarəetməsinin təkmilləşdirilməsini, iqtisadi inkişafın sürətləndirilməsini və vətəndaşların həyat keyfiyyətinin artırılmasını hədəfləyir.

Bu Konsepsiya rəqəmsal hökumət, rəqəmsal iqtisadiyyat və rəqəmsal cəmiyyət prinsipləri əsasında hazırlanmışdır. Məqsəd vətəndaşların rifahını yüksəltmək, dövlət xidmətlərini modernləşdirmək və iqtisadiyyatın rəqəmsal transformasiyasını sürətləndirməkdir.

Konsepsiyada rəqəmsal iqtisadiyyatın inkişafı üçün İKT infrastrukturunun təkmilləşdirilməsi, biznes və startap ekosistemlərinin gücləndirilməsi nəzərdə tutulur. Həmçinin, rəqəmsal texnologiyaların, xüsusən süni intellekt və blokçeyn kimi innovasiyaların tətbiqi əsas məqsədlərdən biri olaraq müəyyən edilib.



Dövlət idarəetməsi rəqəmsal texnologiyalara əsaslanan daha çevik və şəffaf proseslərlə təmin ediləcək, kağız daşıyıcılardan tamamilə imtina olunaraq "rəqəmsal hökumət"ə keçid baş verəcək, böyükhəcmli məlumatların təhlili, süni intellekt və bulud texnologiyaları kimi innovasiyalar tətbiq olunacaq.

Rəqəmsal cəmiyyət üçün rəqəmsal savadlılıq artırılacaq, kibertəhlükəsizlik təmin ediləcəkdir. İKT üzrə mütəxəssislərin hazırlanması, tədris proqramlarının müasirləşdirilməsi və İKT üzrə işçilərin əməkhaqqı səviyyəsinin artırılması prioritet məsələlərdir. Biznes prosesləri rəqəmsal platformalara keçid edəcək, dövlət-özəl tərəfdaşlığı genişləndiriləcək, IV Sənaye İnqilabı texnologiyalarının tətbiqi ilə iqtisadiyyatın müxtəlif sektorları rəqəmsallaşdırılacaq, startapların və innovativ ekosistemin inkişafına dəstək göstəriləcəkdir. Milli kibertəhlükəsizlik strategiyası çərçivəsində dövlətin, biznesin və fərdi məlumatların qorunması üçün qabaqlayıcı tədbirlər görüləcək, dövlət informasiya sistemləri və ehtiyyatları müasir təhlükəsizlik standartlarına uyğun şəkildə inkişaf etdiriləcək.

"Hökumət buludu", "açıq məlumatlar" və genişzolaqlı internet şəbəkələri genişləndiriləcək, 5G şəbəkələrinin qurulması və milli məlumat mərkəzlərinin inkişafı həyata keçiriləcək.

Konsepsiyanın reallaşdırılması nəticəsində dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə prosesləri təkmilləşəcək, göstərilən dövlət xidmətləri rəqəmsal platformaya transformasiya ediləcək, formalaşan yeni texnoloji tələblər əsasında dəyişən iqtisadi fəaliyyətlərin çevik uyğunlaşması baş verəcək, insan və texnoloji kapitalın ölkə daxilində saxlanılması təmin ediləcək, eləcə də ölkənin dünya bazarlarında rəqabət qabiliyyəti artacaq.

# Hərbi hissələrdə əsgərlərlə görüşə müvəqqəti məhdudiyyət qoyuldu - RƏSMİ



***Ölkəmizdə qış mövsümündə havaların soyuq keçməsi ilə əlaqədar mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma hallarının artması müşahidə olunur. Bununla əlaqədar adaptasiya dövründə olan gənc əsgərlərin sağlamlığının qorunması məqsədilə hərbi hissələrdə onlarla görüşə müvəqqəti məhdudiyyət qoyulub.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, hərbi hissələrin qapalı və ictimaiyyətlə məhdud ünsiyyət şəraitində olması komandir-rəis heyəti və hərbi tibb personalı tərəfindən hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə effektiv qabaqlayıcı tədbirlərin keçirilməsinə imkan yaradır:

"Şəxsi heyətlə maarifləndirici söhbətlərin aparılması, onlara düzgün qidalanma və fərdi gigiyena qaydalarının, gündəlik fəaliyyətlər zamanı kompleks profilaktik tədbirlərin vacibliyinin çatdırılması sayəsində yoluxma hallarının qarşısının alınması təmin edilir. Respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması məqsədilə görülən tədbirlərin effektivliyinin təmin edilməsini nəzərə alaraq ictimaiyyətdən hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmağı, qeyd olunan məhdudiyyəti anlayışla qarşılamağı və hərbi hissələrə gəlməməyi xahiş edirik".

# "Bələdiyyələrin səlahiyyətini artırmaq lazımdır" - Deputat

***"Bələdiyyələrin sayının azalması elə də ciddi effektiv nəticə doğurmalı deyil. Ona görə ki, bələdiyyənin səlahiyyətini artırmaq lazımdır. Birinci bu məsələ üzərində düşünülməlidir".***

Bunu "Unikal"a açıqlamasında deputat Fazil Mustafa deyib. O bildirib ki, bələdiyyələrin sayının azalması müsbət tendensiyadır:

"O baxımdan ki, əhali sayı az olan yerlərdə boşuna yeni bir strukturun yaranmasına ehtiyac qalmır. Bu bələdiyyələrin sayı azalandan sonra məsələn, Bakının rayonlarında bələdiyyələrin səlahiyyəti olacaqmı? Buna imkan yaradılacaqmı ki, yerli problemləri həll etsin. Bunun üzərində düşünülməlidir. Bələdiyyələrə gerçək yerli özünüidarəetmə statusu verilməlidir. Bu olarsa, onda hər hansı şəkildə effekti üzə çıxacaq. Bu seçkilərdən sonra daha aydın bilinəcək ki, bələdiyyə yenə cansız orqanizm kimi qalacaq, yoxsa aktiv fəaliyyət göstərən qurum olacaq. Real mənzərə bunu daha dəqiq göstərəcək". Qeyd edək ki, yanvarın 29-u Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Budəfəki seçkidə bələdiyyələrin sayı 2 dəfədən çox azaldılıb. Bələdiyyələrin sayı 1606-dan 921 vahid azaldılaraq 685-ə endirilib.

***Anar Kəlbiyev***

# Nazir Rəşad Nəbiyev Kayrat Sarıbay ilə müzakirələr apardı

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ölkəmizdə səfərdə olan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin baş katibi Kayrat Sarıbay ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanın təşkilata sədrliyi çərçivəsində nəqliyyat və İKT sahəsində görüləcək işlər müzakirə edilib. Müvafiq tədbirlərin keçirilməsi və layihələrin icrası ilə bağlı əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Xidmət rəisi dəyişdi - Təyinat

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi vəzifəsi müvəqqəti olaraq Xaliq Mirzəyevə həvalə edilib.***

"Unikal"ın məlumatına görə, bu barədə ETSN-in mətbuat katibi İradə İbrahimova məlumat verib. Bu təyinata qədər X.Mirzəyev Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəis müavini vəzifəsində çalışıb. Xatırladaq ki, bundan əvvəl Firuddin Əliyev Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi vəzifəsində çalışıb.

## Afaq Məsuda Azərbaycan Prezidentinin fərdi təqaüdü verildi



***Afaq Məsuda Azərbaycan Prezidentinin fərdi təqaüdü verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamla təqaüd Afaq Məsud qızı Vəliyevaya (Afaq Məsuda) Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə verilib.

## Ağsaqqallar Şurasının üzvləri Qərbi Azərbaycan İcmasına toplandı

***Qərbi Azərbaycan İcmasında Azərbaycan Ağsaqqallar Şurasının üzvləri ilə görüş keçirilib.***



"Unikal" xəbər verir ki, Azərbaycan Ağsaqqallar Şurasının təşəbbüsü ilə baş tutan görüşdə Şuranın sədri, millət vəkili, professor Eldar Quliyev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli, Azərbaycan Ağsaqqallar Şurası sədrinin birinci müavini, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov, AMEA-nın prezidenti, Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, akademik İsa Həbibbəyli, Şuranın sədr müavinləri - millət vəkili, professor Eldar İbrahimov, Bayram Yusifov, akademik Abel Məhərrəmov, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov, həmçinin Şuranın İdarə Heyətinin üzvləri professor Aqiyə Naxçıvanlı, professor İbrahim Quliyev və Akif Rəfiyev, Aparat rəhbəri Ramin Həsənli, eləcə də Azərbaycan Ağsaqqallar Şurasının rayon təşkilatlarının sədrləri - Arif Hümbətov, Saleh Səmədov, Mürvət Əsgərov, Baba Bayramlı, Ramin Məmmədov və İcmanın rəsmi şəxsləri iştirak ediblər.

Giriş nitqi ilə tədbir iştirakçılarını salamlayan Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli qeyd edib ki, Azərbaycan Ağsaqqallar Şurası ilə bu görüşün ötən il keçirilməsi nəzərdə tutulmuşdu, lakin müəyyən səbəblərdən təxirə salınan tədbir bu gün baş tutdu. Azərbaycan Ağsaqqallar Şurasının üzvləri ilə görüşü İcma üçün çox əhəmiyyətli bir hadisə adlandıran natiq tədbirin keçirilməsi ilə bağlı təşəbbüs irəli sürən Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyevə minnətdarlığını bildirərək, Qərbi Azərbaycan İcmasının yaranma tarixi, fəaliyyəti, həyata keçirdiyi işlərin əhəmiyyəti və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Qərbi Azərbaycan İcması tərəfindən hazırlanaraq qəbul edilmiş Qərbi Azərbaycana sülhsevər qayıdışın konseptual əsası olan "Qayıdış Konsepsiyası"nın İcmanın fəaliyyətinin əsasını təşkil etdiyini, bu konsepsiyaya uyğun olaraq ölkə daxilində və xaricdə genişmiqyaslı işlər görüldüyünü vurğulayıb..

Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyev də tədbir iştirakçılarını salamlayaraq görüşün təşkili üçün öz təşəkkürünü bildirib. Qərbi Azərbaycan İcmasının Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsində göstərdiyi prinsipial mövqeni və səmərəli fəaliyyətini yüksək dəyərləndirib.

Azərbaycan Ağsaqqallar Şurası sədrinin birinci müavini, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov çıxışında hər iki təşkilatın birgə fəaliyyətinin əhəmiyyətini və gələcək perspektivlərini yüksək qiymətləndirib.

Sonda Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, professor Eldar Quliyevə Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli tərəfindən hədiyyə və kitablar təqdim edilib.

# "Bəzi ailələr övladlarına tərbiyə verə bilmirlər"

## Ceyhun Məmmədov: " Hər bir məktəbdə kriminala, cinayətə meyilli şagirdlər müəyyənləşdirilməli və nəzarətdə saxlanılmalıdır"

***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, son vaxtlar şagirdlərin törətdiyi cinayət hadisələrinin artmasından, bir sıra məktəblərdə şagirdlərin telefondan istifadəsinin qadağan olunmasından və bu il ali məktəblərə daha çox tələbə qəbulunun planlaşdırılmasının qəbul ballarına necə təsir edəcəyindən danışıb.***

***-Ceyhun müəllim, son günlər şagirdlər tərəfindən törədilən cinayətlərin yenidən artdığını görürük. Onların arasında bıçaqlanma hadisələrinə də rast gəlinir. Bu kimi halların artmasının səbəbi nədir və hansı tədbirlər görülməlidir?***



-Bu cür halların baş verməsi ilk dəfə deyil. Məlum olduğu kimi, əvvəlki dövrlərdə də belə hallar olub. Bu, dünyada gedən prosesdir. Təəssüf ki, bu qədər naliyyətlə, inkişafla yanaşı, dünyada kriminallığa, cinayətlərə meylin artdığını görürük. Bu kimi hallar ayrı-ayrı ölkələrdə də müşahidə olunur. Bu məsələdə ilk növbədə ailələrin üzərinə böyük vəzifə düşür. Təəssüflə qeyd etməliyik ki, bəzi ailələr övladlarına tərbiyə verə bilmirlər və ya bəzən onların tərbiyə verməyə vaxtları olmur. Ailələrin nümunə götürdükləri kriminal şəxslərdir. Məktəblərdə bu prosesə xüsusi diqqət və nəzarət olmalıdır. Hər bir məktəbdə kriminala, cinayətə meyilli şagirdlər müəyyənləşdirilməli və onlar nəzarətdə saxlanılmalıdır. Bu istiqamətdə davamlı işlər aparılmalıdır. Hər bir məktəbdə şagird haqqında məlumatlar olur. Onların bir portreti olmalı, bunlarla bağlı konkret addımlar və planlar olmalıdır. Biz getdikcə bu kimi halların artacağını görəcəyik. Ona görə də məktəbdə uşaqlara nəzarət mexanizmi gücləndirilməlidir. Kriminala meyilli uşaqlar xüsusi olaraq nəzarətdə saxlanılmalıdır. Onların davranışlarına nəzarət olunmalıdır. Həmçinin, məktəblərdə və ailələrdə şagirdlər arasında öz rolunu oynaya bilməməsi, bir sıra hallarda fikirlərinin dağınıq olması burada öz təsirini göstərir. Valideynlər övladlarına kifayət qədər vaxt ayırmalı, onları nəzarətdə saxlamalıdırlar. Onların tərbiyəsinə önəm verməlidirlər. Bir sıra hallarda isə sosial mediada və ya cəmiyyətdə kriminal şəxslərin, onlara aid mahnıların təbliğ olunması bu prosesə öz təsirini göstərir. Burada yanaşma və baxış dəyişməlidir. Bu kimi məsələlərlə bağlı geniş maarifləndirmə və təbliğat işləri aparılmalıdır. Təəssüf ki, gənclərin bir hissəsinin özünə maarifləndirmə işləri davamlı olaraq aparılmalıdır. Şagirdlərə bu kimi əməllərin onların həyatında hansı fəsadları törədəcəyi, çətinlikləri yaradacağı izah olunmalıdır.

***-Məlum olduğu kimi, ölkə üzrə 300-dən çox ümumi təhsil müəssisəsində tətbiq edilən şagird davranış qaydalarına əsasən, təhsilalanların tədris prosesi zamanı xüsusi hallar istisna olmaqla, telefon və digər ağıllı cihazlardan istifadəsi qadağan olunub. Yaqin ki, bu proses digər məktəbləri də əhatə edəcək. Məktəblərdə şagirdlərin telefondan istifadəsinə qadağa qoyulmasını necə qiymətləndirirsiz?***

-Bu, doğru qərardır və çoxdan qəbul edilməsinə ehtiyac var idi. Reallıq ondan ibarətdir ki, məktəblərdə telefonlar şagirdlərin fikirlərini dərsə cəmləməsinə mane olur. Hətta dərs vaxtı telefondan istifadə etməyə cəhd göstərirlər. Bu prosesin qarşısını almaq çətindir. Ona görə də ən doğru qərar məktəblərdə telefondan istifadəyə məhdudiyyətin qoyulmasıdır. Bu imkan verəcək ki, şagirdlərin diqqəti daha çox dərsə yönəlsin. Dərslərinə daha diqqətlə və həssaslıqla yanaşsınlar. Telefondan istifadənin qadağan olunması önəmli qərar kimi qiymətləndirilməlidir.

***-Bu il ali məktəbə 75 mindən çox tələbənin qəbulu planlaşdırılır. Ötən illərlə müqayisədə qəbul sayının artması müşahidə olunur. Necə düşünürsüz, qəbul sayının artması keçid ballarına təsir göstərə bilərmi?***

-Görünən odur ki, tələbə qəbulu artır. Ümumilikdə isə getdikcə əhalinin sayı çoxalır. Bu baxımdan ölkədə yeni iş yerləri, müəssisələr yaradılır. Bunlar daha çox tələbənin ali təhsil almasına imkan verəcək. Ola bilər ki, bu, qəbul ballarına da təsir göstərsin. Bunlar müraciət edən abituriyentlərin sayından asılı olacaq. Həmçinin, onların hansı ixtisaslara və sahələrə yönəlməsi də burada rol oynayacaq. Bu, ali təhsil alan gənclərin sayına da ciddi təsir göstərəcək.

***Anar Kəlbiyev***

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:14 PM Page 8



# Monopolistlərlə bağlı yeni və şok iddialar

## Kərə yağının qiymətindəki bahalaşmanın növbəti təfərrüatları ortaya çıxdı

***Ötən ilin sonlarında Azərbaycana xaricdən idxal edilən kərə yağlarının qiyməti kəskin bahalaşıb. Həmin vaxt alıcılar "Sputnik Azərbaycan"a bildirmişdilər ki, 19 manata olan kərə yağlarının qiyməti 22-23 manata çatıb. Ölkədə istehsal edilən kərə yağlarının qiyməti isə endirimə düşüb.***

Satıcılar da deyilənləri təsdiqləmiş, eyni zamanda demişdilər ki, iri supermarketlərdə satıcılar ölkəmizə idxal olunan kərə yağlarının qiyməti üç-dörd manat civarında bahalaşıb.

”Məsələn, Belarusiya istehsalı olan kərə yağlarının bir kiloqramı 20 manat idi. İndi həmin yağlar



22-23 manatdır. ”Korovuşka” kərə yağı 20 manata satılırdı. Hazırda qiyməti 22 manatdır. Hətta xaricdən gətirilib ölkəmizdə qablaşdırılan kərə yağları da bahalaşıb. ”West Gold”kərə yağının qiyməti 24 manat olub. ”Golden Grown”kərə yağları 23 manata qədər bahalaşıb" - satıcılar vurğulamışdılar.

Bəzi mağazalarda isə yeni il qabağı ölkədə istehsal olunan və qablaşdırılan kərə yağlarının qiymətinə endirimlər tətbiq edilmişdi. Satıcılar bayramdan sonra endirimlərin başa çatacağını, kərə yağlarının endirimsiz qiymətə satışa çıxardılacağını söyləmişdilər. “Unikal” əməkdaşının iri marketlərdəki müşahidələri kərə yağının qiymətində endirimlərin həqiqətən də başa çatdığını, yeni il bayramı öncəsi bahalaşan qiymətlərdə də geriləmə olmadığını ortaya qoyub.

Ümumiyyətlə isə bir neçə ay öncə satışda ən baha kərə yağı 25 manat idisə, hazırda bu qiymət 28-30 manatdır.

Mövzu ilə bağlı danışan iqtisadçı Natiq Cəfərli bildirib ki, Azərbaycanda yerli yağ istehsalı ümumi tələbatın 10-15 faizini ödəmir. Yerli markalar adı altında satılan yağların çoxu da xaricdən gətirilərək ölkədə qablaşdırılır. ”Dünyada da kərə yağının qiymətində artım var. İdxaldan asılılıq mütəmadi olaraq kərə yağının qiymətində bahalaşma ilə müşahidə olunur" - iqtisadçı deyib.

Ekspert çıxış yolunun ancaq xaricdən yağ idxalını aradan qaldırmaq olduğunu söyləyib.

Maraqlısı budur ki, kərə yağının ölkədəki əsas idxalçılarının dediklərindən fərqli nəticə hasil olur. Məsələ burasındadır ki, onlar ötən ilin son günlərində yağın bahalaşmasını idxal prosesinin ”əl dəyişdirməsi” ilə əlaqələndirmişdilər. Bildirmişdilər ki, onların ölkəyə kərə yağı idxalı məhdudlaşdırılıb. Bazarın yeni iştirakçısı isə kərə yağını süni şəkildə bahalaşdırıb. Lakin həmin iştirakçının kimliyi açıqlanmamışdı.

Qeyd edək ki, 2024-cü ilin yanvar-sentyabr aylarında Azərbaycana 123 milyon 972 min ABŞ dolları dəyərində 22 min 204 ton kərə yağı idxal edilib. Dövlət Gömrük Komitəsinin hesabatı əsasında aparılan hesablamalara görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər baxımından 84.5% və ya 56 milyon 779 min ABŞ dolları, həcm baxımından isə 84.3% və ya 10 min 155 ton artıb. Belə ki, 2023-cü ilin ilk 9 ayında Azərbaycana 67 milyon 193 min ABŞ dolları dəyərində 12 min 49 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal edilib. Dövlət Statistika Komitəsinin hesabatına əsasən isə bu ilin yanvar-sentyabr aylarında ölkədə 22 min 345 ton kərə yağı istehsal edilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 10.5% çoxdur. Beləliklə hesabat dövründə Azərbaycanda kərə yağı istehsalı idxaldan 141 ton çox olub.

Qeyd edək ki, bu dövrdə Azərbaycanda idxal kərə yağının orta satış qiyməti 20.90 manat, yerli kərə yağının orta satış qiyməti isə 19.71 manat təşkil edib.

Göründüyü kimi, kərə yağı idxalı kifayət qədər böyük pulların dövr etdiyi bir bazardır və bu bazarda həlledici rol inhisarçılara məxsusdur. İki ay öncə iqtisadçı-alim Vüqar Qocayev də vurğulamışdı ki, mağazalarda kərə yağının baha olmasına səbəb məhz sağlam rəqabət mühitinin formalaşmamasıdır. Sitat: “Ölkəmizə bütün məhsullar sahibkarlar tərəfindən gətirilir. Oradan da topdansatış və pərakəndəsatış məntəqələrinə göndərilir. Onlar da istədikləri qiymətə məhsulu istehlakçılara təklif edirlər. Bu isə daxili bazarda qiymət artmına səbəb olub. Sadəcə, bu sahədə bir nəzarət olmalıdır ki, qiymətlər monopoliyadan ya da yaranmış vəziyyətdən sui-istifadə səbəbindən artmasın”.

Ekspertlərin çoxu açıq şəkildə vurğulayırlar ki, kərə yağı idxalı faktiki olaraq bir neçə iri şirkətin əlində cəmləşib və onların inhisarlığı sözügedən məhsulun qiymətində xüsusən son aylardakı kəskin qiymət artımında əsas faktordur.

Digər tərəfdən, ortada başqa bir ilginc nüans var: södvələşmiş qiymətlərlə bazara çıxan topdansatış şirkətlərinin sayı bir əlin barmaqları qədərdir, pərakəndə satış mağazalarının isə sayı-hesabı yoxdur. Lakin süni qiymət artımı ilə bağlı aidiyyatı qurumlar nədənsə pərakəndə satış mağazalarında yoxlama aparır, inhisarçı topdansatış şirkətləri isə kənarda qalır. Halbuki ekspertlərin də vurğuladığı kimi pərakəndə satış nöqtələrində inhisarçılıq elementləri ola bilməz. Belədə sual yaranır: qiymətlər topdansatışı həyata keçirən inhisarçı şirkətlər tərəfindən müəyyənləşdiyi, bazara qiymətləri onlar diqtə etdiyi halda pərakəndə satış nöqtələrini yoxlamaq hansı qanuna və məntiqə uyğundur? Ən əsası, pərakəndəçilərin suç keçisi elan edildiyi və məmurlara bu və ya digər şəkildə bağlı olan inhisarçı topdansatış şirkətlərinin faktiki şəkildə cəzasız qaldığı bir mühitdə süni qiymət artımının qarşısını almaq mümkündürmü?!

***Sənan Mirzə***



# Nazirin müşaviri Agentliyə sədr təyin edildi

***İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İdarə Heyətinə yeni sədr təyin edilib.***

“Unikal” xəbər verir ki, bu vəzifəyə Fərid Osmanov təyin olunub.

Qeyd edək ki, bu vəzifəni 2023-cü ildən etibarən İnarə Vəliyeva icra edirdi. Onun rəhbərliyi dövründə Agentlik tərəfindən rəqəmsal hökumət quruculuğu, innovasiya ekosisteminin inkişafı və İKT üzrə insan kapitalının formalaşdırılması istiqamətində bir sıra mühüm işlər görülüb.

İnarə Vəliyeva ona həvalə edilmiş öhdəlikləri müvəffəqiyyətlə başa çatdırıb və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin fəaliyyətinin növbəti dövründə sədrlik Fərid Osmanova tapşırılıb.

Qeyd edək ki, Fərid Osmanov Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və kredit fakültəsində bakalavr və magistratura səviyyələrini bitirib. Bununla yanaşı, F. Osmanov Azərbaycan Dövlət İqtisad Universitetinin İnformatika və idarəetmə fakültəsini dünya iqtisadiyyatında informasiya texnologiyaları ixtisası üzrə bitirib, daha sonra Böyük Britaniyanın Mançester Universitetində informasiya sistemləri və idarəetmə üzrə magistr dərəcəsi alıb. İnformasiya texnologiyaları xidmətlərinin idarə edilməsi, həmçinin informasiya təhlükəsizliyinin idarə edilməsi üzrə beynəlxalq sertifikatlara malikdir.

O, 2005-ci ildən Azərbaycan Mərkəzi Bankının (AMB) İnformasiya texnologiyaları departamentində müxtəlif vəzifələrdə çalışıb, 2013-cü ildə həmin departamentin direktoru vəzifəsinə təyin edilib. 2020-ci ildən AMB-də baş direktor vəzifəsində fəaliyyətini davam etdirib.

Fərid Osmanov 2024-cü ilin avqust ayından rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri vəzifəsində çalışıb.

# Keçmiş mətbuat katibinə yüksək vəzifə verildi

***“Veysəloğlu” Şirkətlər Qrupunda (VŞQ) yeni təyinat reallaşıb.***

“Unikal” xəbər verir ki, Sənubər Nəzərova Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri vəzifəsinə təyin edilib. Onun əsas fəaliyyət istiqaməti şirkətin PR strategiyasını idarə etmək və korporativ tədbirlərin təşkilindən ibarət olacaq.

Bu barədə “Veysəloğlu” Şirkətlər Qrupunun Mətbuat Xidmətinin rəhbəri Məhəmmədəli Qəribli bildirib. Sənubər Nəzərova bu təyinatdan əvvəl “Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat katibi kimi fəaliyyət göstərib.

Sənubər Nəzərova daha əvvəl - 2013-2020-ci illərdə SOCAR AQS MMC-də İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışıb. 2021-ci ilin aprelindən 2022-ci ilin dekabrına kimi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində Aparatın İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri olub.

30 ildən artıq müddətdətdir fəaliyyət göstərən “Veysəloğlu” Şirkətlər Qrupu Azərbaycanın qeyri-neft sektorunda ölkə iqtisadiyyatına əhəmiyyətli töhfələr verən iri işəgötürənlərindən biridir. Gündəlik tələbat məhsulları (FMCG) sektorunda ixtisaslaşan Şirkətlər Qrupuna logistika, distribusiya, istehsalat və pərakəndə mağazaçılıq fəaliyyətləri üzrə xidmət göstərən şirkətlər daxildir.



## Kərim Vəliyev Azərbaycanın NATO nümayəndəliyində olub

***Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Brüssel şəhərində NATO-nun Hərbi Komitəsinin Baş Qərargah rəisləri formatında keçirilən iclasında iştirak edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan MN məlumat yayıb.

NATO-nun üzv və tərəfdaş ölkələri ordularının baş qərargah rəislərinin iştirakı ilə keçirilən iclasda çıxış edən general-polkovnik K.Vəliyev ölkəmizin NATO ilə əməkdaşlığının inkişaf perspektivləri, Qətiyyətli Dəstək Missiyası və digər əməliyyatlarda fəaliyyəti, habelə Azərbaycan Ordusunun NATO-nun keçirdiyi müxtəlif təlim və tədbirlərdə əldə etdiyi təcrübədən danışıb.

Azərbaycanın Avro-Atlantik məkanında və onun hüdudlarından kənarda sülhə və təhlükəsizliyə daim töhfə verdiyini qeyd edən general-polkovnik K.Vəliyev, ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş tərəfdaş kimi beynəlxalq sülhə və təhlükəsizliyə daha çox töhfə vermək niyyətində olduğunu bildirib.

Səfər çərçivəsində Baş Qərargah rəisinin iclasda iştirak edən bəzi həmkarları ilə görüşləri planlaşdırılır.

## Bu kolleca direktor əvəzi təyin edildi

***Gəncə Dövlət Universitetinin nəzdində Regional Kolleca yeni təyinatlar olub.***

"Unikal" xəbər verir ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin 16 yanvar tarixli əmri ilə Gəncə Dövlət Universitetinin nəzdində Regional Kolleca Xudiyeva Xoşqədəm Vidadi qızı tədris işləri üzrə, Quliyev Aslan Ələddin oğlu isə tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə təyin olunub.

X.Xudiyevaya həm də kollecin direktoru vəzifəsi həvalə edilib.

## Azərbaycanda muzdla çalışan işçilərin əmək haqqı artıb

***2024-cü il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1775,3 min nəfər olub, onlardan 884,4 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 890,9 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, muzdla işləyənlərin 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 12, 9 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 15,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

Məlumata görə, 2024-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 996,8 manat təşkil etmişdir. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

## Goranboyda məktəbli qız qaçırıldı

***Goranboyda 10-cu sinif şagirid olan qız evlənmək məqsədi ilə qaçılıb.***

"Unikal"ın məlumatına görə, hadisə dünən axşam saatlarında Goranboy şəhərində baş verib. Belə ki, 10-cu sinif şagirdi olan qız 21 yaşlı sevgidiyi oğlan tərəfindən qaçırılıb. Dərhal hadisə ilə bağlı Goranboy rayon icra hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiya və rayon polis şöbəsi araşdırmaya başlayıb.

Qeyd edək ki, qaçırılan məktəbli Goranboy şəhər 1 saylı tam orta məktəbin 10-cu sinif şagirdidir.

# Nazirliklərin tenderlərdə qalib elan etdiyi sevimli şirkətlər

## 77 milyonluq tender qalibi "Depot" şirkəti haqqında açıq mənbələrdə heç bir məlumat yoxdur

***Son vaxtlar Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi dövlət satınalmaları ətrafında mübahisələr səngimir. Bu dəfə nazirliyin adı 77 milyon manatlıq hazır yemək alınması ilə bağlı keçirilən tenderlə gündəmə gəlib.***

Belə ki, adı çəkilən qurumun Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Depot" şirkəti ilə satınalma müqaviləsi bağlayıb.

Müqavilədə hazır yeməklərin satın alınması nəzərdə tutulur və onun maliyyə dəyəri 76 999 093,94 manatdır.

Lakin maraqlı məqam budur ki, "Depot" şirkəti haqqında açıq mənbələrdə heç bir məlumat yoxdur. Hətta vergi sistemində şirkət barədə məlumatlara rast gəlinmir. Kifayət qədər böyük məbləğdə bir tender udmuş "Depot"la bağlı hər hansı bilgi olmaması, şirkətin özünə məxsus internet resursunun belə yoxluğu çoxsaylı suallara yol açıb.

Lakin nazirlik həm yuxarıdakı, həm də digər tenderləri ilə bağlı istər mediada, istərsə ictimaiyyətdə dolaşan bu və buna bənzər suallara cavab verməkdə həvəsli görünmür.

Ümumiyyətlə isə Elm və Təhsil Nazirliyinin keçirdiyi milyonluq tenderlərdəki qaranlıq məqamlar axır vaxtlar mütəmadi gündəmə gəlir. Məsələn, təxminən 20 gün öncə yerli KİV bu nazirliyin eyni idarəsinin - Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi - respublikadakı bir sıra təhsil müəssisələrində abadlıq və təmir işlərinin satın alınması ilə bağlı tenderə yekun vurulduğunu xəbər verdi. Qaynarinfo-nun məlumatına görə, tenderin qalibi "Global Interiors Group" şirkəti seçilib. Nazirlik abadlıq və təmir işlərinə 1 658 500 manat xərcləyəcək. Abadlıq və təmir işlərinin hansı təhsil müəssisələrində aparılacağı məlum deyil.

Bildirildiyinə görə, "Global İnteriors Group" şirkəti 1998-ci ildən fəaliyyət göstərir. Nizamnamə kapitalı 20 manat olan şirkətin qanuni təmsilçisi Hacıyev Ruslan Şahin oğludur. Şirkətin təsisçisi isə iş adamı Yaqub Hüseynovdur. O, həm də "Bridge Group" şirkətinin təsisçisidir.

"Global İnteriros Group" şirkəti tikinti, interyer dizayn və mebel sahəsində fəaliyyət göstərir. Lakin maraqlı məqam başqadır: Yaqub Hüseynovun adı bir neçə il əvvəl xalq artisti Zeynəb Xanlarovanın bacısı oğlu Daşqın Nəsirovun əsas fiqurant olduğu torpaq qalmaqalında hallanırdı. Həmin vaxt mediada gedən məlumatlarda iddia edilirdi ki, Xəzər rayonunun Türkan qəsəbəsində qanunsuz yollarla ələ keçirilən torpaqları Yaqub Hüseynov satın alıb.

Yenə ötən ilin sonlarında - dekabr ayında Elm və Təhsil Nazirliyinin bir həftə içində eyni şirkətlə ikinci dəfə satınalma müqaviləsi imzaladığı diqqətdən qaçmamışdı. Bu dəfə də Təsərrüfat Hesablı Əsaslı tikinti və Təhcizat İdarəsinin yekun vurduğu tenderin maliyyə dəyəri kifayət qədər böyük idi. Belə ki, maşın və avadanlıqların əsaslı təmiri işlərinin satınalınması prosesini həyata keçirəcək şirkət olaraq "RRM Təmir-Tikinti" MMC bunun müqabilində 1.721.771,04 manat ödəniş alacaqdı. Maraqlı orası idi ki, həmin tenderdən cəmi bir neçə gün əvvəl nazirlik eyni şirkətlə 10.866.100,8 manatlıq satınalma müqaviləsi imzalamışdı. Üstəlik, "RRM Təmir-tikinti" MMC buna qədər nazirliyin tabeliyində olan Təhsilin İnkişafi Fondunun keçirdiyi 4 tenderdən ikisinin də qalibi olmuşdu. Şirkət bu iki tenderə görə, 6 521 535 manat pul alıb.

Sözügedən MMC-nin keçən il də Elm və Təhsil Nazirliyi üçün sevimli şirkət olduğu aydınlaşır. Belə ki, 2023-cü ilin oktyabrında nazirliyin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Respublika ərazisində bir sıra təhsil müəssisələri üzrə yanğın əleyhinə su hovuzlarının tikintisi və əsaslı təmiri işlərinin satınalınması" tenderini də "RRM Təmir-Tikinti" MMC-yə verib. Bu satınalma müqabilində nazirlik adı çəkilən MMC-yə 1 428 909 manat ödəyib. Digər tərəfdən, ötən il ölkə məktəblərində bir sıra avadanlıqların alınması üçün "RRM Təmir-Tikinti" ilə nazirlik arasında 497679 min manatlıq satınalma müqaviləsi imzalanıb.



Düzdür, "RRM Təmir-Tikinti" ilə bağlı bəzi bilgilər mövcuddur: 2020-ci ildə yaradılıb, nizamnamə kapitalı 2 010 AZN təşkil edir, qanuni təmsilçisi Elnur Hümmətov Zahid oğlu, hüquqi ünvanı isə Z1122, Bakı şəhəri Yasamal rayonu, Əsəd Əhmədov, ev 2B, m. 61-dir. Lakin sadəcə Elm və Təhsil Nazirliyindən qısa müddətdə on milyonlarla manatlıq tender udan bu şirkətin də internet resursu yoxdur. Halbuki yaşadığımız dövrdə şəffaflıq və etibarlılıq baxımından şirkətlərin rəsmi saytlarının olması, bu saytlarda onların potensialı, imkanları, həyata keçirdiyi layihələr barədə ətraflı bilgilərin yer alması önəmli sayılır.

Lakin bizdə müxtəlif nazirliklərin maliyyə dəyəri böyük pullarla ölçülən tenderlərində qalib elan edilən sevimli şirkətlər üçün yuxarıdakı kriteriya nədənsə heç bir əhəmiyyət daşımır. Maraqlıdır, görəsən, niyə?!

***Toğrul Əliyev***

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:14 PM Page 10



# Deputata 20 milyon manatlıq şok

## Əlibala Məhərrəmzadə özünün ən gəlirli obyektindən niyə məhrum olub?

***VII çağırış Milli Məclisin deputatı seçilən və "Kaspian Audit Kompani" MMC-nin direktoru olmuş Əlibala Məhərrəmzadə Qubadakı məşhur "Şahdağ Quba Turuskavets" Sanatoriyasını borc əvəzinə təhvil verib. Bu barədə Gununsesi.info-ya iş adamına yaxın mənbələr bildirib.***

Xatırladaq ki, hələ parlament seçkilərindən öncə Əlibala Məhərrəmzadənin külli miqdarda borc içində olduğu barədə məlumatlar yayılmışdı. Yeni məlumata görə, borc problemini həll edə bilməyən deputat sonda məşhur obyektini təhvil verməli olub.

Həmin obyektin 20 milyon manat dəyərində olduğu bildirilir.

"Unikal"ın araşdırmaları nəticəsində "Şahdağ Quba Truskavets" Tibbi Sanatoriyasının 2019-cu ildə elə Əlibala Məhərrəmzadə tərəfindən təsis olunduğu aydınlaşıb.



Məsələ ilə bağlı deputatın özünün mövqeyini öyrənmək cəhdləri baş tutmayıb.

Maraqlıdır ki, millət vəkilinin özü də nə parlament seçkiləri öncəsi borc içində olduğuna dair yayılan xəbərlərə, nə də indi özünün ən gəlirli obyektini həmin borc müqabilində təhvil verdiyi barədə məlumatlara reaksiya vermək istəməyib.

Xatırladaq ki, iqtisad elmləri doktoru, professor, auditor, motivasiya spikeri və yazıçı olduğu bildirilən Məhərrəmzadə 59 saylı Quba seçki dairəsindən Milli Məclisin VII çağırış deputatı, eyni zamanda Milli Məclisin Azərbaycan-Ukrayna Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupunun yeni rəhbəri seçilib.

Əldə etdiyimiz məlumata görə, sonuncu məqam təsadüfi deyil: Əlibala müəllimin Ukrayna ilə yaxın əlaqələri var. Onun borc müqabilində təhvil verdiyi bildirilən "Şahdağ Turuskavets" Sanatoriyasının adında "Truskavets"in yer alması da təsadüfi deyil. Azərbaycan Yazıçılar Birliyi ilə yanaşı Ukrayna Yazıçılar Birliyinin üzvlük vəsiqəsini də daşıyan Məhərrəmzadənin bu ölkə ilə biznes əlaqələrinin olduğuna dair iddialar var. Hətta onun 2019-cu ilin dekabrında açılışı olmuş Ukrayna Ticarət Evinə də rəhbərlik etdiyi vurğulanır. Bu ticarət evinin açılışı elə həmin il Ukrayna prezidenti Vladimir Zelenskinin Bakıya səfəri zamanı onun iştirakı ilə gerçəkləşib.

"Bu gün Ukraynanın Ticarət Evində peşəkar auditorlar, hüquqşünaslar və mühasiblər işləyir. Ukrayna Ticarət Evi, potensial iş ortaqları axtarır, tədarükçülər, distribyutorlar, hüquqi şəxslərin və şirkətlərin yoxlanılması və reytinqini həyata keçirir, müqavilə və sazişlərin hazırlanması ilə məşğul olur. Ticarət Evinin himayəsi altında Ukrayna mağazalar şəbəkəsi və Ukrayna restoranları fəaliyyət göstərir. Ticarət Evi yeni genişmiqyaslı bir layihə həyata keçirir - "Güzdək Terminal" vahid logistik Mərkəzi. Bu, ən böyük beynəlxalq logistika arteriyalarının kəsişməsində - Bakı və Sumqayıt kimi böyük şəhərlərlə həmsərhəd olan Güzdək kəndində və Xırdalan kəndindəki dəmir yolu stansiyasında yerləşən sənaye mallarının və qida məhsullarının daşınması və saxlanması üçün müasir kompleksdir. Yeni kompleks, həm Azərbaycandan Ukraynaya, həm də əks istiqamətdə sənaye mallarının və qida məhsullarının, onların daşınması və daşınmasının son dərəcə müasir texnoloji saxlanmasına imkan verəcəkdir." - Əlibala Məhərrəmzadə bu sözləri Ukrayna Ticarət Evinin açılışının ardından yerli KİV-lərdən birinə müsahibəsində bildirmişdi.

Əlibala müəllim deputat seçildikdən sonra rəhbəri olduğu holdinqlə bağını de-yure kəsib. Belə ki, ötən ilin noyabrında "A&J Holding"də ("A ənd J Holdinq") rəhbər dəyişikliyi baş verib. Fuad Məhərrəmov Rövşən oğlu holdinqin direktoru təyin edilib. Buna qədər isə şirkətin rəhbəri məhz Əlibala Məhərrəmzadə idi.

Bildirildiyinə görə, "A&J Holding" 2005-ci ildə təsis edilib. Şirkətin kifayət qədər böyük məbləğdə - 20.51 mln. manat nizamnamə kapitalı var. Onun yeni rəhbərinin isə Əlibala müəllimin yaxın qohumu olduğu iddia edilir.

"Unikal"ın araşdırmasına görə, Əlibala müəllim Azərbaycan orta əsrlər tarixini əks etdirən və bu yaxınlarda ekranlara çıxan "Atabəylər: Şəmsəddin Eldəniz" çoxseriyalı bədii-sənədli filminin prodüseri olan "Shahdag Cinema Production" MMC-nin, həmçinin 2015-ci ildə yaradılan "Şahdağ İdman Klubu"nun da təsisçisidir.

Maraq üçün onu da bildirək ki, Əlibala Məhərrəmzadə daha əvvəl də parlament seçkilərində namizədliyini irəli sürüb. Belə ki, 2010-cu ildə keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Əlibala müəllim 20 saylı Nərimanov ikinci seçki dairəsindən deputatlığa namizəd olsa da, millət vəkili mandatını qazana bilməyib.

Qeyd edək ki, 9 avqust 1976-cı ildə Qubada anadan olan Məhərrəmzadə 1997-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İdarəçiliyi İnstitutunu bitirib. 1993-1997-ci illərdə Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun (UNEC) İdarəçilik fakültəsində bakalavr pilləsi üzrə təhsil alıb. Həmin təhsil illəri müddətində mərhum prezident Heydər Əliyev və "Türk Dünyası Araşdırma Vakfı"nın rəhbəri olmuş Turan Yazqanın təşəbbüsü ilə Türkiyənin Boğaziçi Universitetində təhsil almaq üçün yollanan azərbaycanlı tələbələrin qrupunda yer alıb. 1999-cu ildə İstanbul Universitetinin İqtisadiyyat şöbəsini bitirərək, iqtisad elmləri namizədi elmi dərəcəsini alıb. Professordur.

Onu da deyək ki, Məhərrəmzadənin millət vəkili seçildiyi 59 saylı Quba seçki dairəsindən uzun illər ərzində tanınmış iqtisadçı Vahid Əhmədov seçilib. Belə ki, hazırda 77 yaşı olan Vahid müəllim 2005-ci ildən etibarən sözügedən dairədən deputat kimi fəaliyyət göstərirdi. O, III, IV, V və VI çağırış Milli Məclisə seçkilər zamanı parlamentə mandat qazanmışdı. Son parlament seçkiləri zamanı isə o, namizədliyini irəli sürsə də, sonradan geri çəkildiyini elan etmişdi. Əhmədov bu addımını yaşlı olması ilə əlaqələndirmişdi.

*Sənan Mirzə*

# Rəsmi Bakı Qəzzada atəşkəs razılaşmasını alqışlayır



***Azərbaycan Qəzzada atəşkəs və girovların azad edilməsi razılaşmasını alqışlayır.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin X sosial media hesabında qeyd edilib.

Bildirilib ki, Azərbaycan ümid edir ki, bütün tərəflər razılaşmaya hörmət edəcək və əziyyətlərə son qoyulacaq.

"Azərbaycan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq İsrail-Fələstin münaqişəsinin iki dövlət prinsipi əsasında həllini dəstəkləyir və bu məqsədə doğru beynəlxalq ictimaiyyətlə işləməyə davam edəcək", - deyə əlavə edilib.

Qeyd edək ki, Qəzza zolağında atəşkəs razılaşması yanvarın 19-da qüvvəyə minəcək və 42 gün davam edəcək. Girovların azad edilməsi razılaşmanın birinci mərhələsi olacaq. HƏMAS-ın ilk mərhələdə 33 girovu azad edəcəyi gözlənilir.

# Bu ərazilərdən heyvan və quş əti idxalına məhdudiyyət qoyulub



***Almaniya Federativ Respublikasının Brandenburq vilayətində və İsrail Dövlətinin Mərkəz dairəsində dabaq, Şotlandiyanın Anqus inzibati ərazi vahidində və Nigeriya Federativ Respublikasının Kano ştatında isə yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb. Bu barədə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) rəsmi məlumatlar daxil olub.***

Bu barədə "Unikal"a AQTA-dan məlumat verilib. Bildirilir ki, daxil olan həmin məlumatlar əsasında AQTA tərəfindən adları qeyd olunan ərazilərdən iri və xırdabuynuzlu heyvanların, diri quş və inkubasiya yumurtalarının, quş ətinin və quş emalı məhsullarının ölkəmizə idxalına müvəqqəti məhdudiyyət qoyulub.

Məqsəd qeyd olunan ölkələrdən respublikamızın ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorumaqdır.

Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

# Limonad emalı müəssisəsinin fəaliyyəti məhdudlaşdırıldı



***Göyçay rayonu, Çayarxı kəndində fəaliyyət göstərən, fiziki şəxs Osmanov Ramin İttifaq oğluna məxsus alkoqolsuz içkilərin emalı (limonad emalı) müəssisəsində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları yoxlama keçirib.***

"Unikal" xəbər verir ki, müəssisədə sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, emal prosesində qida təhlükəsizliyi tələblərinin pozulduğu aşkarlanıb.

Digər istehsalçılara məxsus boş butulkaların yığılaraq sanitar-gigiyenik tələblər gözlənilmədən kustar üsulla içkilərin qablaşdırılmasında istifadə olunduğu, həmçinin içkilərin keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması məqsədilə laborator müayinələrdən keçirilmədiyi, etiket məlumatlarında məhsulların təbii meyvələrdən hazırlandığı qeyd olunsa da siroplardan istifadə edildiyi məlum olub.

Faktla bağlı müəssisənin rəhbərliyi inzibati məsuliyyətə cəlb edilib, laborator müayinələrin aparılması üçün içkilərdən nümunələr götürülüb, müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.

02_27 IYUI-QARA.qxd 1/16/2025 10:14 PM Page 11



# Azad edilmiş ərazilərdə 3 min km-dən artıq yol salınıb

***“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”, həmçinin dövlət başçısı tərəfindən imzalanmış Sərəncamlar əsassında, işğaldan azad olunmuş ərazilərdə yol infrastrukturun bərpası məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ümumi uzunluğu 3 382,6 km təşkil edən 45 avtomobil yolunun layihələndirilməsi və tikintisi işləri davam etdirilir:***

- Respublika əhəmiyyətli - 1076,1 km;
- Yerli əhəmiyyətli - 2306,5 km.

”Unikal” xəbər verir ki, agentlik tərəfindən indiyədək sözügedən layihələrdən ümumi uzunluğu 315,9 km təşkil edən 7 avtomobil yolunun tam, 1 layihənin tikintisi qismən (39.7 km-lik Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 24.2 km-lik hissəsi) yekunlaşdırılıb:

1. Tərtər-Suqovuşan-Talış avtomobil yolu - 28,5 km;
2. “Zəfər Yolu” - 101 km;
3. Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu - 22 km;
4. Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolu - 22 km;
5. Bərdə-Ağdam avtomobil yolu - 44,5 km;
6. Füzuli-Hadrut avtomobil yolu - 12,3 km;
7. Hacıqabul-Bəhramtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun 173,6-235 km-lik hissəsi - 61,4 km.

**Tikintisi davam edən layihələrin 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulub:**

1. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu - 81,7 km, 4 hərəkət zolaqlı;
2. Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu - 39,7 km, 4 hərəkət zolaqlı;
3. Xudafərin-Qubadlı-Laçın avtomobil yolu - 70,4 km, 4 hərəkət zolaqlı;
4. Toğana-Kəlbəcər-İstisu avtomobil yolu - 81,8 km, 2-4 hərəkət zolaqlı;
5. Kəlbəcər-Laçın avtomobil yolu - 75,6 km, 2-4 hərəkət zolaqlı;
6. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu - 123,6 km, 4-6 hərəkət zolaqlı;
7. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd (112 km) - İranla dövlət sərhədi avtomobil yolunun (7,7 km) və Araz çayı üzərində avtomobil körpülərinin tikintisi;
8. Ağdam-Füzuli avtomobil yolu - 65,7km, 4 hərəkət zolaqlı;
9. R-33, Ağdam-Hindarx-Ağcabədi avtomobil yolu - 44,8 km, 2 hərəkət zolaqlı;
10. Qubadlı-Eyvazlı avtomobil yolu - 28,5 km, 2 hərəkət zolaqlı;
11. Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi avtomobil yolu - 22,3 km, 2 hərəkət zolaqlı;
12. Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 33-cü km-dən başlayan yeni Qubadlı-Laçın avtomobil yolu - 25.2 km;
13. Hadrut-Tuğ-Azıx avtomobil yolu - 19 km, 2 hərəkət zolaqlı;
14. Kəlbəcər və Laçın rayonları ərazisində müxtəlif təyinatlı avtomobil yolları -1274,6 km, 2 hərəkət zolaqlı;
15. Zəngilan, Qubadlı və Laçın rayonları ərazisində müxtəlif təyinatlı avtomobil yolları - 297 km;
16. Laçın rayonunda hava limanının tikintisi ilə əlaqədar qazma-partlatma və torpaq işləri.

**Dövlət Proqramına uyğun olaraq, Agentlik tərəfindən 8 şəhərin - Şuşa, Ağdam, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Laçın daxili yollarının tikintisi işləri də icra olunur:**

1. Şuşa şəhərinin daxili yollarının tikintisi (52 km, I mərhələ 15,8 km);
2. Ağdam şəhərinin daxili yollarının tikintisi (189,7 km, I mərhələ 58,7 km);
3. Qubadlı şəhərinin daxili yollarının tikintisi (74 km, I mərhələ 24 km);
4. Zəngilan şəhərinin daxili yollarının tikintisi (32 km, I mərhələ 15,8 km):
5. Kəlbəcər şəhərinin daxili yollarının tikinti (26,5 km, I mərhələ 18,9 km);
6. Cəbrayıl şəhərinin daxili yollarının tikintisi (44,5 km, I mərhələ-24 km);
7. Füzuli şəhərinin daxili yollarının tikintisi ( 84,7 km, I mərhələ 18,5 km);
8. Laçın şəhərinin daxili yollarının tikintisi və bərpası - ( 80 km, I mərhələ 55.8 km)

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 8 kəndə gedən avtomobil yollarının və 6 rayonlararası avtomobil yollarının tikintisi işləri də aparılır:

1. Cəbrayıl rayonu, Horovlu kəndinə gedən avtomobil yolu (2,8 km, 2 hərəkət zolaqlı);
2. Ağdam rayonu, Kəngərli kəndinə gedən avtomobil yolu (3 km, 2 hərəkət zolaqlı);
3. Qubadlı rayonu, Mahruzlu kəndinə gedən avtomobil yolu(0,3 km, 2 hərəkət zolaqlı);
4. Qubadlı rayonu, Zilanlı kəndinə gedən avtomobil yolu (0,2 km, 2 hərəkət zolaqlı);
5. Zəngilan rayonu, Cahangirbəyli kəndinə gedən avtomobil yolu (0,5 km, 2 hərəkət zolaqlı);
6. Xocalı rayonu, Malıbəyli kəndinə gedən avtomobil yolu (1 km, 2 hərəkət zolaqlı);
7. Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun 24-cü km-dən ayrılan Umudlu kəndinə gedən avtomobil yolu (10,2 km, 2 hərəkət zolaqlı);
8. M-6(197 km)-Şəfəq stansiyası avtomobil yolu (11,5 km, 2 hərəkət zolaqlı, qırmadaş örtüklü, layihələndirmə işləri həyata keçirilir)
9. Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolu - 77,6 km;
10. Xankəndi-Şuşa-Laçın avtomobil yolu - 32,6 km;
11. Suqovuşan-Kəlbəcər (9 km) Ağdərə-Ağdam avtomobil yolu - 33,8 km;
12. Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolu (24 km hissəsi I texniki dərəcəli) - 34 km;
13. Bərdə-Ağdam (40km)-Əsgəran avtomobil yolu - 20,6 km;
14. Tərtər-Ağdərə avtomobil yolu - 24.2 km.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan avtomobil yolları üzərində tikilən tunellərin ümumi uzunluğu 70,8 km (45 tunel), körpülərin ümumi uzunluğu- 9581,6 m (447 körpü), viadukların ümumi uzunluğu 3871 m (16 viaduk) təşkil edir.

İndiyədək uzunluğu 59,6 km təşkil edən 28 tunelin, uzunluğu 8339,1 metr təşkil edən 392 körpünün və uzunluğu 1695 metr olan 9 viadukun tikintisi başa çatıb.

# Hacıbala Abutalıbovun büdcəyə 3 milyon manatlıq ziyanı

## Sabiq mer və yaxın adamlarının illər əvvəlki qanunsuzluqlarının sədası yenidən çıxdı

***Yola salmaq üzrə olduğumuz həftə xəbər yayıldı ki, Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) mülkiyyət hüququnun pozuntusuna görə Azərbaycanın 1 milyon 693 min 892 avro (3 milyon manata yaxın) məbləğində təzminat ödəməsinə dair qərar çıxarıb.***

”Haqqin.az”ın məlumatına görə, məhkəmə sözügedən qərarı Bakıda “Qış parkı”nın inşası zamanı evdən çıxarılan sakinlərin ifadələri əsasında verib.

Qeyd olunub ki, 2008-ci ildə Bakı şəhər İcra Hakimiyyətinin başçısının göstərişi ilə Füzuli, Səməd Vurğun, Şəmsi Bədəlbəyli və Topçubaşov küçələrində 500-dən çox yaşayış və qeyri yaşayış sahəsi sökülüb, sakinlər isə köçürülüb.



Sakinlər mülkiyyət hüquqlarına müdaxilədən şikayət edərək ədalətli məhkəmə prosesinin aparılmasını tələb ediblər.

Məlumata görə, məhkəmə yanvarın 14-də qərarını elan edib və bu qərara əsasən hökumət 18 ərizəçiyə maddi və mənəvi zərərə görə ümumilikdə 1 milyon 693 min avro həcmində təzminat ödəməlidir.

Qərara əsasən, ərizəçilərdən İ. Bağvanova 370 min, D. Quliyevaya 98 min, E. Hüseynova 46 min, K. Əliyevaya 28 min, İntizar və Zərifə Allahverdiyevalara birlikdə 156 min, M. Əzimovaya 65 min, M. Əliyevaya 88 min, V. Mahmudovaya 122 min, R. Məmmədə 155 min, S. Əzizovaya 8,3 min, F. Əliyevə 30 min, Y. Kərimovaya 136 min, F. Qədirovaya 7,1 min, R. Hüseynovaya 106 min, A. İsmayılovaya 117 min, Ş. Rzayeva və Ə. Rzaya birlikdə 12 min və L. Əliyevaya 88 min avro məbləğində maddi zərər əvəzi ödəməlidir.

Qərar həmçinin, ərizəçilərdən L. Əliyeva, A. İsmayılova, F. Qədirova və Y. Kərimovanın hər birinə 4700 avro məbləğində mənəvi zərər əvəzi ödənilməsini nəzərdə tutur. Hökumət yerdə qalan 14 ərizəçinin hər birinə isə 3 min avro məbləğində mənəvi zərər əvəzi ödəməlidir.

Ərizəçilərə qeyd edilənlərdən başqa ümumilikdə, 692 avro məbləğində poçt və digər xərclərin əvəzi ödənilməlidir.

Ödəniş isə 3 ay ərzində həyata keçirilməlidir.

Qeyd edək ki, Füzuli, Səməd Vurğun, Şəmsi Bədəlbəyli və Topçubaşov küçələrində 500-dən çox yaşayış və qeyri yaşayış sahəsinin sökülərək sakinlərin köçürülməsi barədə göstərişi paytaxtın o vaxtkı meri Hacıbala Abutalıbov imzalamışdı. Bunun ardınca başlayan proses isə qalmaqallarla müşayiət olunmuşdu. Həmin vaxt yerli KİV yazırdı ki, paytaxt rəhbəri “Qış parkı” adından sui-istifadə edir. “Vətəndaşların mülkiyyəti dəyər-dəyməz qiymətə alınıb kommersiya (inşaat) şirkətlərinə satılır. Əslində isə plana görə, Füzuli və Şəmsi Bədəlbəyli küçələrində sökülən evlərin yerində “Qış bulvarı” salınmalıdır. Ancaq söküntünün miqyası qanunsuz olaraq genişləndirilir” deyə bildirilirdi.

O da qeyd olunurdu ki, məsələn, Abutalıbovun nümayəndəsi Z.İsmayılov bir çox ünvanlardakı sakinlərə qan uddurur. Bəzi vətəndaşlar vurğulayırdılar ki, yaşadıqları massiv “Qış parkı” layihəsinə aid olmadığı halda onlara söküntü aparılacağı bildirilir, ancaq bu barədə heç bir sərəncam təqdim olunmur. Narazı mülkiyyət sahiblərinin iddiasına görə, kimin imkanı varsa ona 1700-2000 manatdan kompensasiya ödənilir. “Kimin Abutalıbova əli çatır, sözü keçir, adamı var, onlara yaxşı pul ödənir. Zülfəli İsmayılov deyir ki, kvadratına 1500 manatdan artıq verilməyəcək. Hara istəyirsiniz şikayət edin” - şikayətçilər vurğulayırdılar.

Hətta Abutalıbovun nümayəndəsinin evləri tək-tək alaraq öz adına keçirdiyi, mənzillərin pulunu isə hissə-hissə bank vasitəsilə ödədiyi barədə də KİV-də şikayətlər yer almışdı.

Həmin vaxt bütün bu iddialara isə adı çəkilən şəxslərdən hər hansı reaksiya gəlməmişdi.

Maraqlı orasıdır ki, çox sonralar paytaxtın sabiq merinin əmlaklarına dair mediada siyahı açıqlanmış və orada sözügedən ərazidəki bir çox obyektlərin Hacıbala müəllimə məxsusluğu diqqətdən yayınmamışdı. Məsələn, paytaxtın Füzuli küçəsi 39-da yerləşən və "sürüşdürülən bina" kimi tanınan binanın 1-ci mərtəbəsini zəbt edən və obyektə çevirən (”Klassik-Şəms”) Abutalıbovun bundan başqa ”Qış parkı”nda yerləşən ”Zambaq”, ”İnnab” və ”Palıd” kafelərinin də sahibi olduğu vurğulanmışdı.

Hacıbala müəllim yuxarıdakı iddiaları da cavabsız qoymuş, siyahını nə təsdiq, nə təkzib eləmişdi.

“Qış parkı”nın salındığı dövrdə bir sıra mütəxəssislər layihəni təqdirlə qarşılasalar da, Bakı Şəhər İcra Hakimiyyəti rəhbərliyinin prosesi vətəndaşlarda ciddi narazılıqlar yaratmaqla aparmasını tənqid etmişdilər. Onların fikrincə, bu, görülən işin əhəmiyyətinə kölgə salır və Abutalıbovun ictimai faydalı bir layihədən şəxsi maraqları üçün istifadə etməyə çalışdığını göstərir.

İndi isə AİHM-dən mülkiyyət hüququnun pozuntusuna görə Azərbaycanın 1 milyon 693 min 892 avro (3 milyon manata yaxın) məbləğində təzminat ödəməsinə dair çıxardığı qərar bunun dolayı yolla təsdiqi sayıla bilər. Belə çıxır ki, keçmiş mer və yaxın adamlarının vaxtilə yol verdikləri qanunsuzluqlara, özbaşınalıqlara görə dövlətin büdcəsi 3 milyon manat ziyana düşməlidir.

***Sənan Mirzə***

02_27 IYUI-QARA.qxd 1/16/2025 10:14 PM Page 12



## 5.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İctimai və dövlət maraqları sosial platformada necə qorunur?

## Əziz Əlibəyli: “Sosial şəbəkələr üzərindən ciddi təhdidlərlə qarşı-qarşıya qalmışıq”



***Sosial şəbəkələrin populyarlaşması dövlət və ictimai maraqların sosial platformalarda da qorunmasını vacib edir. Son vaxtlar insanların kütləvi şəkildə daxil olduğu “Tiktok” sosial şəbəkəsində dövlət və ictimai maraqların müdafiəsi baxımından demək olar ki, səhifələrə, siyasi şərhlərə, siyasətçilərə tək-tək hallarda rast gəlinir.***

Bu isə, sosial platformada dövlət və ictimai maraqların qorunmasının təmin olunmasını şərtləndirir. Müqayisə aparsaq görərik ki, sosial platformalar arasında da hazırda dövlət və ictimai maraqların ən çox qorunduğu sosial şəbəkə resursu “Facebook”dur. Siyasətçilərin, jurnalistlərin, dövlət qulluqçularının, ziyalıların, vətəndaş cəmiyyəti təmsilçilərinin aktiv olduğu bu şəbəkədə dövlət və ictimai maraqlardan çıxış edən analitik şərhlərə, fikirlərə, paylaşımlara daha çox rast gəlinir. Dövlətimizə, onun başçısına, eləcə də milli maraqlarımıza yönəlik hər hansı siyasi hücumun cavabı “Facebook” sosial şəbəkəsində dərhal verilir. Hətta bunun üçün həştəqlər yaradılır, Azərbaycanın milli və dövlətçilik maraqlarına toxunan məsələ ilə bağlı paylaşımlar edilir.

Siyasi şərhçi Əziz Əlibəyli “Unikal” qəzetinə açıqlamasında bildirib ki, sosial şəbəkələr həyatımızın bir parçasına çevrildiyindən dövlət və milli maraqlar, eləcə də ictimai maraqlar baxımından sosial platformalarda aktivlik vacibdir.

“Əslində inzibati və hüquqi prosedurların operativ şəkildə qəbul edilməsi və tətbiqi sözügedən məsələyə böyük töhfə verir. Bu, presedent qlobal səviyyədə daha çox böyük dövlətlərin ideoloji və siyasi-mədəni rəqabətinə görə meydana çıxdı. Məsələn, Rusiya və Çin özünün sosial şəbəkələrini yaratmaqla qərbin texnoloji ideologiya ixracını blokladı və bundan sonra hər iki cəbhədə - sosial mediada milli maraqların qorunmasının dairəsi müəyyən edilərək, kiber məkandakı davranışlara dair cinayət tərkibi nəzərdə tutan maddələr əlavə edildi. Bizdə isə sosial şəbəkələrin təşəkkülü və populyarlıq səviyyəsinə görə qiymətləndirmə aparılmağa başladı. Məslən, bütün dünyada ciddi siyasi platforma kimi qəbul edilən X seti önəmsiz vəziyyətdədir, amma əsasən “Facebook”da bütün keyfiyyətli istehsallar cəmləşdirilməyə başladı. Bu, daha sonra “Tiktok” şəbəkəsinin asan istifadəsinə görə və fərqli görsəl məzmun təqdimatı imkanına görə, daha az intellektual əmək tələb etdiyi üçün rekord istifadəçiyə qədər çata bildi. Bu, özlüyündə yeni davranışları və ordakı xaosa qarşı adekvat cəzaları da tələb edir. Görürük ki, birbaşa siyasi və ictimai maraqların hədəfə alınması deyil, dolayısı ilə ona aparan səbəblər üzrə davranışların populyarlaşması daha dəhşətli nəticələr doğurur”.

Ə. Əlibəyli deyir ki, mafiya və cinayətkar aləmin, elektron qumar biznesinin, əxlaqsızlığın, sosial -psixoloji davranışlarında pozulma olan şəxslərin qəhrəmanlaşdırılması və topluma örnək kimi göstərilməsi həm ictimai düzəni, həm təlim - tərbiyə prosesini, həm də asan yolla maddi sərvət əldə etməyə altşüurda cinayətə sövq çağırışları limitsiz, sərbəst və qarşısıalınmaz səviyyədə artmaqdadır: “ Xüsusilə, “Tiktok”, “İnstagram” üzərindən ciddi təhdidlərlə qarşı-qarşıya qalmışıq. Bunun üçün təcili müəyyən təcrübələrə getmək lazımdır. Avropa İttifaqı ”Ümumi Məlumatların Qorunması Qaydası” (GDPR) vasitəsilə şəxsi məlumatların qorunmasını təmin edir. Bu qaydalar sosial şəbəkələrdə istifadəçilərin məlumatlarının icazəsiz istifadəsinin qarşısını almaq məqsədi daşıyır. Almaniya 2017-ci ildə ”NetzDG” qanununu qəbul edərək, sosial şəbəkələrdə nifrət nitqi və saxta xəbərlərin yayılmasının qarşısını almaq məqsədilə platformalara ciddi tələblər qoyub. Bu qanuna əsasən, sosial şəbəkələr qanunsuz məzmunu 24 saat ərzində silməlidirlər. Biz sosial şəbəkələrlə bağlı nifrət dili anlayışını sosial -psixoloji davranışları və dezo, feyklərlə mübarizə məsələlərini müvafiq hüquqi akt altına toplamalıyıq”.

Qeyd edək ki, hazırda dünyanın əksər ölkələrində olduğu kimi ölkəmizdə də insanların böyük əksəriyyəti informasiya ehtiyaclarını ictimai rəyə güclü tesir imkanları olan sosial şəbəkə platformaları vasitəsi ilə ödəyir. Eyni zamanda sosial şəbəkə kanallarının kütlə əhatəsi digər alternativ sayıla biləcək vasitələrdən dəfələrlə böyükdür. Sosial şəbəkələr həm də cəmiyyətimiz üçün taleyüklü məqamlarda ictimai fəal vətəndaşların, ziyalıların milli maraqları müdafiə etməsi, dövlətçilik əleyhinə yönəlmiş ünsürlərə qarşı mübarizə meydanı və bunun üçün ictimai qınağın təşkil edilməsi imkanlarına malikdir. Bu imkanlardan istifadə edən hər bir azərbaycanlı istifadəçinin Qarabag həqiqətləri və xalqımıza qarşı törədilmiş erməni vandalizmini obyektiv şəkildə təbliğ edə və dünya ictimaiyyətinin diqqətinə çatdırmaq imkanları var. Həmçinin ictimai və dövlət maraqlarının qorunması istənilən bir cəmiyyətin başlıca məqsədlərindən hesab olunur. Ölkəmizdə dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasına əsaslanır. Prezident İlham Əliyev ölkəmizdə dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdətinə xüsusi önəm verir. Vətənə bağlılıq, vətənpərvərlik hər bir vətəndaş üçün ən həssas məqam hesab olunmalıdır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# “Azərişıq” Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir

***Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin tapşırıqlarına əsasən “Azərişıq” ASC 2024-cü ilin son ayları və yeni ilin ilk günlərində də Qarabağ və Şərqi Zəngəzurda lazımi yenidənqurma və bərpa işlərini davam etdirib.***

”Unikal” xəbər verir ki, 2024-cü ildə Kəlbəcər rayonu ərazisində 5 istiqamətdə iki dövrəli və beşdövrəli ÖİN-3 (Özünüdaşıyan İzoliyasiyalı Naqil) kabel xətlərinin çəkilişinə start verilib. Alagöllərdə strateji obyektlərə xidmət edəcək xətlər, həmçinin Milli, Çaykənd, Qamışlı kəndləri istiqamətində xətlərin çəkilişləri yekunlaşdırılıb. “Azərişıq” ASC-nin əməkdaşları 2025-ci ilin ilk günlərində də iş başında olublar. 110/35 kV-luq İstisu Yarımstansiyasından Mineral su zavoduna çəkilən ikidövrəli ÖİN-3 kabel kəttinin çəkilişi davam etdirilir. Dayaqların quraşdırılması yekunlaşdırılıb, kabellərin montaj işləri aparılır. Xatırladaq ki, 2024-cü il sentyabrın 2-də Cənab Prezident İlham Əliyevin iştirakı Kəlbəcərdə “İstisu” yarımstansiyasının açılışı baş tutub.

Laçında da dağıdılmış elektrik təsərrüfatının yenidən qurulması işləri davam edir. Minkənddə 35 kV-luq yarımstansiyanın və şəhər daxilində Rəqəmsal idarəetmə Mərkəzinin tikintisi yekunlaşmaq üzrədir. Uğurla sona çatdırılan yenidənqurmalarla yanaşı, rayonun bütün kəndlərinin elektrik enerjisi ilə təmin olunması üçün işlər ardıcıl olaraq gedir. Belə ki, Quşçu kəndində ÖİN-3 kabel hava xəttinin çəkilişi tamamlanıb, transformatorlar quraşdırılıb, gərginlik verilib. Kürdhacı, Ərikli, Şəlvə, Gülebird və Qorçu qəsəbəsində elektrik xətləri çəkilişi davam edir. İkidövrəli hava kabel xətləri çəkilir.

Xatırladaq ki, işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun digər rayonlarında da dağıdılmış elektrik şəbəkələri tamamilə yenidən qurulur. Yeni salınan şəhər və qəsəbələrin işıqlandırılması üçün ən müasir avadanlıqlardan istifadə edilməklə yeni güc mərkəzləri yaradılır. Görülən bütün işlər Baş Plana əsasən aparılır.

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:14 PM Page 13





## Leyla Əliyevanın təşəbbüsü ilə uşaqlara ustad dərsləri keçirildi

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Yevlax şəhərində yerləşən "Gənclər Məkanı"nda uşaqlar üçün rəsm və art-terapiya mövzularında ustad dərsləri keçirilib.***

"Unikal" xəbər verir ki, "Nine Senses" İncəsənət Mərkəzinin müəllimləri tərəfindən regionlarda yaşayan uşaqlar üçün ilk dəfə keçirilən ustad dərsləri onların asudə vaxtının səmərəli təşkilinə yönəlib.

İnnovativ üsulla rəsm və animasiya vasitəsilə uşaqların yaradıcılıq qabiliyyətinin və potensialının üzə çıxarılması, onların daha faydalı işlə məşğul olmaları, eləcə də gələcək fəaliyyət və peşə istiqamətlərini müəyyən etməyə töhfə verilməsi bu ustad dərslərin əsas məqsədlərindəndir.

Ustad dərsləri ərzində uşaqlar müxtəlif alət və ləvazimatlardan istifadə edərək rəsm çəkmək üçün tələb olunan ilkin bilikləri mənimsəmiş, habelə incəsənət vasitəsilə dərs həyəcanının aradan qaldırılması, asudə vaxtın səmərəli planlaşdırılması texnikası ilə tanış olublar.

Uşaqlar üçün maraqlı və əyləncəli keçən, ən əsası da faydalı olan ustad dərsləri valideynlərin də rəğbətini qazanmış və dərslərin davamlı olması arzusu bildirilib.

Qeyd edək ki, qazanılan təcrübə və müsbət fikirlərə əsaslanaraq, bu və digər mövzularda ustad dərslərinin digər regionlarında da təşkili nəzərdə tutulur.

## "Nizami: daxili aləm" filmi ilk dəfə mavi ekranda




***Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə (1141-1209) həsr edilmiş "Nizami: daxili aləm" sənədli filmi ilk dəfə televiziyada nümayiş olunacaq.***

"Unikal" xəbər verir ki, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) sifarişi ilə lentə alınan ekran əsəri yanvarın 25-də saat 23:00-da "AnewZ" kanalının efirində tamaşaçılara təqdim ediləcək.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi tərəfindən Nizami Gəncəvi yaradıcılığının əbədiləşdirilməsi və beynəlxalq səviyyədə daha geniş təbliğinə töhfə vermək məqsədilə sifariş edilən film beynəlxalq auditoriya üçün nəzərdə tutulub.

İngilis dilində lentə alınan sənədli filmdə görkəmli tarixçilər, ədəbiyyat və mədəniyyət xadimlərinin böyük şairin zəngin yaradıcılığı haqqında fikirləri yer alıb.

Ekran işinin ssenari müəllifi Kristina Lin Morelli, rejissoru və prodüseri Atakan Kerküklü, operatorları Miya Lusia Keyhli Padcet və Ceremi Stefan Fut, montaj redaktoru Bahəddin Dastandır.

## Qızıl və gümüş bahalaşdı

***Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyası üzrə fevral fyuçerslərinin qiyməti 0,26% artaraq 2 724,8 ABŞ dollarına bərabər olub.***

"Unikal" xəbər verir ki, COMEX-də gümüşün bir unsiyası üzrə mart fyuçerslərinin qiyməti də 0,17% artaraq 31,59 ABŞ dollarına bərabər olub.

**ELAN**

Nəbiyev Tahir Yuriy oğluna məxsus 1008695A seriya nömrəli xidməti vəsiqə ogurlandığından etibarsız hesab olunur.

# "Nizamnamə kapitalı 10 manat olan şirkətə niyə milyonlar ayırmısız?" - Şlyapa Zahidin məhkəməsi



***Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin, Təhsil-tədris və Elmi Tədqiqatlar İdarəsinin sabiq baş zabiti, 42 milyonluq mənimsəmədə ittiham olunan Zahid Niftəliyevin ("Şlyapa Zahid") cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə şahidlər dindirilib.

Şahid qismində ifadə verən "Ata Bank"ın əməkdaşı olmuş Solmaz Əliyeva Zahid Niftəliyevi bankda 2-3 dəfə gördüyünü bildirib:

"Mən 2004-cü ildən "Ata Bank"da çalışmışam. Hüquqi şəxslər bankda mədaxil və məxaric üçün əməliyyatçıya yaxınlaşır, sonra sənədləri mənə yönləndirilir. Mən sənədlərin dəqiqliyini yoxlayıram. İmzalayıb kassaya göndərirəm. Müştəri kassaya yaxınlaşaraq vəsaiti nağdlaşdırır. Elə Zahid Niftəliyevi də bir dəfə kassada, bir neçə dəfə də bankda görmüşəm".

Təqsirləndirilən Zahid Niftəliyev şahidi görmədiyini, bankda cəmi bir dəfə olduğunu və həmin zaman yalnız sənədləri imzaladığını bildirdi.

Daha sonra məhkəmə şahidin ibtidai istintaqa verdiyi ifadə ifadəni elan edib.

Şahid ibtidai istintaqa verdiyi ifadəsində bildirib ki, Zahid Niftəliyev müxtəlif vaxtlarda şirkətin hesabına 21.279.000, 6,663.288, 39.733.891 dollar vəsait mədaxil edib. Eyni zamanda, 16.847.000 dollar digər şirkətə köçürülüb. Daha sonra 7.350.000 dollar məxaric olunub.

Bununla yanaşı, şahid müxtəlif vaxtlarda 625.000 və 683.000 dollar məbləğində kredit ödənişinin həyata keçirildiyini bildirib.

Lakin təqsirləndirilən banka pul ödəmədiyini məhkəməyə bildirib.

Daha sonra "Ata Bank"ın bank olmayan kredit təşkilatında çalışmış Rüfət Daşdəmirov şahid qismində ifadə verib.

Şahid müştərilərlə ünsiyyətdə olmadığını, yanlız ona ötürülən müraciətlərə əsasən əməliyyat apardığını bildirib:

"Müştərilər bankın filialına yaxınlaşır. Filial müştəri ilə danışır, ödəmə qabiliyyətini yoxlayır. Oradan əməliyyat bizə ötürülür. Biz əməliyyatı nəzərdən keçiririk. Aidiyyəti üzrə göndəririk. Qərara əsasən, əməliyyat icra olunur. "Şahin Co" şirkəti tərəfindən filiala müraciət daxil olub. Filial müraciətə baxıb bizə göndərib və kredit ayırmışıq. Orada qərarı mən vermirəm. Mən müştəri ilə ünsiyyətdə olmuram. Əməliyyatı icra edirəm. Müraciətə əsasən, şirkətə 20 milyon dollar kredit ayrılıb. Kredit komitəsinin iclasında iştirak etməmişəm. Məruzəni bankın filialı edib.

Hakimin "Siz nəyə əsasən kredit ayrıldığını, şirkətin nizamnamə kapitalının 10 manat olduğu halda pulun geri qaytarılmasına kimin təminat verdiyini deyə bilərsizmi?" barədə sualına şahid bildirib ki, müraciət hüquqi şəxs tərəfindən olunub:

"Hüquqi şəxslərin nizamnamə kapitalı əksər hallarda 10-15 manat civarında olur. Elə müraciətin də əsas məqsədi şirkətin maliyyə dövriyyəsinin yüksəldilməsi istiqamətində olub.

Dövlət ittihamçısının "Girovsuz bu qədər böyük məbləğdə krediti niyə ayırdınız?" sualına şahid bu qərarı bankın rəhbərliyinin verdiyini bildirdi.

Şahidin ifadasi ibtidai istintaqa verdiyi ifadə arasında ziddiyyət olub. İfadə elan olunub:

"Şirkətə kredit ayrılması qanunsuz olub. Kredit müraciətinin edildiyi gün şirkət yaradılıb. Bununla bağlı bankın idarə heyətinn sədri Dəyanət Quliyev göstəriş verdi ki, sənədlər yoxlanılsın, müraciət kredit komitəsində müzakirəyə çıxarılsın. Qalan proseslə işiniz olmasın. Bankın filialı məruzə ilə çıxış etdi. Mən bununla bağlı heç bir sənədə imza atmamışam. Bankın rəhbərliyi razılıq verdi. Bununla da kredit verilməsi barədə qərar qəbul olundu".

Proses 5 fevralda davam etdiriləcək.

Qeyd edək ki, Zahid Niftəliyev rüşvət almaqda ittiham olunaraq bir müddət əvvəl həbs olunub. Ona Tərtər Hərbi Məhkəməsinin hökmü ilə şərti cəza verilib, azadlığa buraxılıb. Daha sonra o, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İstintaq baş idarəsi tərəfindən həbs edilib.

İstintaq dövründə Gəncə Apellyasiya Məhkəməsi prokurorluğun Tərtər Hərbi Məhkəməsinin hökmü ilə bağlı protestini təmin edib. Z.Niftəliyev vəzifə saxtakarlığı və külli miqdarda rüşvət almaqda təqsirli bilinərək 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Bundan başqa, Z. Niftəliyev hazırda məhkəmədə araşdırılan cinayət işi üzrə öz adına formal şirkət açaraq "ATABank"dan götürülmüş 42 milyon manat kredit vəsaiti üzrə çıxarılmış məhkəmə qətnaməsini qərəzli olaraq icra etməməkdə ittiham olunur.

İttihama əsasən, Zahid Niftəliyev məqsədyönlü şəkildə həmin məbləğdə kredit almaq məqsədilə "Şahin-CO" adlı şirkət yaradıb, şirkət təsərrüfat və maliyyə vəziyyəti barədə "Ata Bank" ASC-yə saxta məlumatlar təqdim etməklə 2016-cı ildə 12 ay müddətinə 42 milyon 470 min 885 manat manat kredit alaraq xüsusilə külli miqdarda ziyan vurub. O, götürülmüş kreditin ləğv prosesində olan "Ata Bank" ASC-yə ödənilməsi ilə bağlı məhkəmə qətnamələrini qərəzli olaraq icra etməyib.

Onu da qeyd edək ki, xüsusilə külli miqdarda mənimsəmə cinayətində iştirakı araşdırılan digər şəxslərlə bağlı DTX-də cinayət işi ayrılıb.

***Seymur Əli***

# Xaricdə təhsil almış 69 nəfərin diplomu tanınmayıb

***Keçən ilin dekabr ayında xaricdə təhsil alanların diplomlarının tanınması üzrə 325 müraciətçinin 256-sı barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 69 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***

Bu barədə "Unikal"a Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbi ilə 58, dövlət nümunəli olmayan diplom səbəbilə 4, akkreditasiyasız filial səbəbilə 3, "Açıqöğretim" təhsil forması səbəbilə 1, akkreditasiyasız ali təhsil müəssisəsi və dövlət nümunəli olmayan diplom blankı səbəbilə 1,



akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbilə 1, əczaçılıq ixtisası üzrə qiyabi formada təhsil alınması səbəbilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 117, Ukraynadan 84, Rusiyadan 80, Birləşmiş Krallıqdan 9, Gürcüstandan 7, Macarıstandan 7, Amerika Birləşmiş Ştatlarından 6, Litvadan 2, Pakistandan 2, Polşadan 2, Avstraliyadan 1, Çexiyadan 1, Çindən 1, İsraildən 1, İtaliyadan 1, Latviyadan 1, Moldovadan 1, Qazaxıstandan 1, Səudiyyə Ərəbistan Krallığından 1 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, iqtisadiyyat üzrə 38, maliyyə üzrə 33, biznesin idarə edilməsi üzrə 30, menecment üzrə 14, beynəlxalq münasibətlər üzrə 13, logistika və nəqliyyat texnologiyaları mühəndisliyi üzrə 13, turizm işinin təşkili üzrə 13 müraciət qeydə alınıb.

# Daha 32 ailə Cəbrayıl şəhərinə köçürülüb

***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı bu gün Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.***

"Unikal" xəbər verir ki, bu mərhələdə Cəbrayıl şəhərinə daha 32 ailə - 153 nəfər köçürülüb.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 mindən çox insan yaşayır.

Xatırladaq ki, yanvarın 13-də Cəbrayıl şəhərinə 39 ailə - 165 nəfər köçürülüb. Doğma yurda qayı-



dan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Tarix yazan şəhid Tacir Eminov

***Tacir İntiqam oğlu Eminov 44 günlük haqq savaşımızda Vətəninin yaşaması naminə ömrünün 19-cu ilində canını ona fəda edib. Onun bu hünəri bütöv bir xalqın qəhrəmanlığı simvoluna dönərək tarixə yazılıb.***

Nəticədə Tacir cismən aramızdan getsə də, milyonların ürəyində özünə yer etməklə günəş ömrü qazanıb. Fəqət, qərinələr keçəcək yenə də Vətən sevdalısı Tacirin şərəfli həyat yolu gələn nəsillərə örnək olacaqdır...

Doğma Azərbaycanın daşını, torpağını qəlbən sevib onun yolunda qurban gedən Tacir Eminov 2001-ci il dekabrın 31-də Cəlilabad rayonunun Sadatlı kəndində anadan olub. Tacir etibardan, düz ilqardan ürəklərə yol ala-ala müstəqil həyata qədəm qoyub. Eldə nəciblik, halalıq, doğma Vətənə, torpağa ülvi məhəbbət onu gələcəyə doğra aparıb. Bir də yağıya əsir düşən Qarabağımızı azad görmək Tacirin bütün arzularının zirvəsində dayanıb. Odur ki, əsgərliyə yola düşəndə yağıdan qisas alacağına and



içib.

Tacir Eminov cəbhə bölgəsində Vətən qarşısında borcunu ləyaqətli övlad kimi şərəflə yerinə yetirib, xidmət etdiyi hissədə böyük hörmət qazanıb. Vətəni necə sevməyi, halal torpağı canı bahasına qorumağı ondan öyrənənlər də olub. Həmişə deyib ki, doğma Azərbaycanın hər qarışını qorumaq, bu yolda şəhid olmaq bir övlad kimi bizim müqəddəs borcumuzdur.

Tacir orduda xidmət etdiyi zaman arzuladığı müharibə başlayıb. İlk gündən 30 il əsir düşən Qarabağımızın azad olunması uğrunda ölüm-dirim savaşına qatılıb. Hər döyüşdə də Vətənə sevgisi Tacirlə birgə addım atıb. Odur ki, bir çox ciddi sınaqlardan alnıaçıq çıxmaqla hünəri onunla çiyin-çiyin vuruşan yoldaşlarını heyran qoyub. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə sözün əsl mənasında erməni dığalarına qan uddurub. 2020-ci ilin 6 oktyabrı isə qəhrəman Vətən sevdalısının son döyüşü olub. Yağı düşmən bu dəfə onun ürəyini nişan ala bilib.

Əsl qəhrəman kimi bu dünyadan köçən Tacir Eminov həm də dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü" və digər medallara layiq görülüb.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***



# Mərkəzi Univermağın qızıl alverçilərinin 186 min manatı necə ələ keçirilib?

***Qızıl alverçilərinin külli miqdarda qızıl-zinət əşyalarını dələduzluq yolu ilə ələ keçirməkdə təqsirləndirilən şəxs Günay Həziyevanın növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, proses Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə baş tutub. İlk olaraq şahid Taleh Babayev ifadə verərək bildirib ki, atası Sevda xanımla ortaq qızıl alveri edib: "Atama aid olan qızılları Sevda xanım vermişdi Günaya. O da pulu vermirdi. Sonra Sevda xanımdan qızılımızı tələb etdik. Günay xanımla bir dəfə şəhərdə görüşmüşük. Orda dedi hər ay 500-1000 manat ödəniş olunacaq. Ümumi borc məbləği 186 min manat idi. Onun 30 min manatı bizə çatmalı idi. Biz Sevda xanımla ortaq idik. Pulla bağlı Günay xanımın xalasıgilə getdik, orada mübahisə yarandı, onlar polisə müraciət elədilər. Bizim Mərkəzi Univermaqda qızıl piştaxtamız olub. Atam xəstələnəndikdən sonra həmin biznesi mən davam etdirdim".

Daha sonra Talehin məhkəmədə verdiyi ilkin ifadəsi elan olundu.

Bəzi şahidlər məhkəmə prosesinə gəlmədiyindən onlar barədə məcburi gətirmə qərarı çıxarıldı. Faiq və Vasif adlı şəxslərin

Təqsirləndirilən şəxsin vəkili lombard işçisi olan Orxan İsayevin məhkəmə prosesinə çağırılması barədə vəsatət verdi.

Zərərçəkən şəxsin vəkili isə lombard işçisinin çağırılmamasını, təqsirləndirilən şəxsin keçmiş həyat yoldaşı Həziyev Səbuhi və anası Lətafət Məmmədovanın isə məhkəmədə dindirilməsi ilə bağlı vəsatət verdi. Hakim müşavirə edərək vəsatətin qəbul olunması barədə qərar qəbul etdi.

Məhkəmə prosesi 30 yanvar tarixinə kimi təxirə salındı.

Qeyd edək ki, cinayət işində 4 nəfər qızıl alverçisi zərərçəkmiş qismində tanınıb. Təqsirləndirilən şəxs Günay Həziyeva barəsində isə azyaşlı uşağı olduğu üçün polis nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

***Seymur Əli***

# Ağdaşda payızlıqların səpini başa çatıb

***Ağdaş rayonunda 2025-ci ilin məhsulu üçün payızlıqların səpini başa çatıb.***

Rayonda 2025-ci ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmışdır və cari il yanvar ayının 1-i vəziyyətinə 15557,0 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilib. Səpin aparılmış sahənin 99,3 faizini və yaxud 15442,0 hektarını dən üçün səpilmiş payızlıq bitkilər təşkil etmişdir ki, onun da 3950,0 hektarı buğda, 11492,0 hektarı arpa əkinlərinin payına düşür.

Ən çox payızlıq bitkilər rayonun Ərəbocağı, Yuxarı Nemətabad, Prkəkə, Kotavan və Qoşaqovaq kəndlərində səpilib.

Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 3,2 faiz, o cümlədən arpanın səpin sahəsi 4,7 faiz azalmış, buğdanın səpin sahəsi 0,1 faiz artıb.

***Ağdaş Rayon Statistika İdarəsi***

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:14 PM Page 15





# Böyük Britaniyanın baş naziri Ukraynaya getdi

***Böyük Britaniyanın baş naziri Keir Starmer ilk dəfə Ukraynaya səfər edib və burada "yüz illik tərəfdaşlıq" haqqında saziş imzalayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə "The Guardian" qəzeti məlumat yayıb.

Nəşrin məlumatına görə, Starmer və Ukrayna prezidenti Volodimir Zelenski London və Kiyev arasında müdafiə sahəsində əməkdaşlığı gücləndirmək üçün "yüz illik tərəfdaşlıq" haqqında saziş imzalayacaqlar. Böyük Britaniyanın baş naziri həmçinin Ukrayna rəsmiləri ilə Böyük Britaniyanın respublikaya hansı təhlükəsizlik zəmanətlərini verə biləcəyini, o cümlədən münaqişə həll edildikdən sonra Britaniya qoşunlarının sülhməramlı qüvvələrin tərkibində göndərilməsi imkanlarını müzakirə edəcək.

***Gülayə Mecid***

# Keçmiş prezidentlər Trampın andiçmə mərasimində iştirak etməyəcəklər

***Keçmiş Amerika prezidentləri Barak Obama, Corc Buş və Bill Klinton ABŞ-nin yeni seçilmiş lideri Donald Trampın inauqurasiya mərasimində iştirak etməyəcəklər.***

"Unikal" xəbər verir ki, bu barədə NBC telekanalı mənbələrə istinadən məlumat yayıb.

Telekanalın məlumatına görə, Obama və Klinton şam yeməyinə dəvət alıblar. Bundan əlavə, inauqurasiya naharına keçmiş birinci xanım və keçmiş dövlət katibi Hillari Klinton da dəvət olunub, lakin o da tədbirdə iştirak etməyi planlaşdırmır.

Bununla belə, yanvarın 20-də Trampın andiçmə mərasimi keçiriləcək. Mərasimdə amerikalı sahibkar və siyasətçi İlon Mask, "Amazon"un qurucusu Ceff Bezos və "Meta" şirkətinin rəhbəri Mark Zukerberq iştirak edəcək.

***Gülayə Mecid***

# İvanişviliyə qarşı sanksiyalarla bağlı təklif Britaniya İcmalar Palatasına təqdim olunub

***"Gürcü Arzusu" partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişviliyə qarşı sanksiyaların tətbiqi ilə bağlı təklif Böyük Britaniyanın İcmalar Palatasına təqdim olunub.***

Məlumatı Böyük Britaniya parlamenti yayıb.

Bildirilir ki, "palata Gürcüstanın Aİ-yə daxil olması prosesinin dayandırılması və dinc nümayişçilərə qarşı həddən artıq güc tətbiqindən dərin narahatlığını ifadə edir, Bidzina İvanişvilinin demokratiyanın sarsıdılmasında və Rusiyanın Gürcüstanda təsirinin təşviqində rolunu pisləyir".

Sənəddə ABŞ-nin İvanişviliyə qarşı sanksiyalar tətbiq etdiyi qeyd olunub və Böyük Britaniya hökumətinə demokratik geriləməyə qarşı sərt mövqe nümayiş etdirmək üçün eyni addımı atması, Böyük Britaniyanın Gürcüstanla strateji tərəfdaşlığa yenidən baxması çağırışı edilib. Təklifi hazırda İcmalar Palatasının 13 üzvü imzalayıb.

# "Orduda qadınların sayı artmalıdır" - Paşinyan

***"Qadınların hərbi xidmətə cəlb olunması prosesləri çox ləng gedir, demək olar heç getmir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan yanvarın 16-da hökumətin iclasında deyib.



"Aydındır ki, fəsadlar var, bizdə hətta patrul polisində də fəsadlar var. Amma bunu qeyd etməliyik, əhalimizin əksəriyyəti qadınlardır. Əgər biz qadınların potensialından tam istifadə etməmişiksə, bu o deməkdir ki, biz ölkəmizin inkişaf yolunu kəsirik, onu şansdan məhrum edirik, çünki siz öz resurslarınızın 40%-dən istifadə edə bilmirsiniz və o inkişaf imkanını əldə edə bilmirsiniz. Bizə ən azı 50-100-ə çatmaq üçün həndəsi irəliləyiş lazımdır. Orduda qadınların sayı eksponent olaraq artmalıdır", - deyə Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

# Kobaxidze Azərbaycana gəlir

***Gürcüstanın Baş naziri İrakli Kobaxidze yanvarın 17-də Azərbaycana səfər edəcək.***

"Unikal" xəbər veir ki, bu barədə Baş nazirin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, səfər çərçivəsində Bakı şəhərində, Gürcüstan və Azərbaycan Respublikasının Baş nazirlərinin rəhbərliyi ilə Gürcüstan-Azərbaycan iqtisadi əməkdaşlığının hökumətlərarası komissiyasının iclası keçiriləcək.

Komissiyanın iclasında hər iki ölkənin hökumət üzvləri iştirak edəcəklər. Baş nazir İrakli Kobaxidzenin Azərbaycanda yüksək səviyyəli görüşləri planlaşdırılır. Gürcüstanın Baş nazirinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüşü planlaşdırılır. Görüşdən sonra liderlər mətbuata birgə bəyanatlarla çıxış edəcəklər.

Gürcüstan nümayəndə heyətinə birinci vitse-prezident, İqtisadiyyat və Davamlı İnkişaf naziri Levan Davitaşvili, xarici işlər naziri Maka Boçorişvili, ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri David Son-



qulaşvili, mədəniyyət naziri Tinatin Ruxadze və hökumət administrasiyasının rəhbəri Levan Jorjoliani daxildir.

# PUA yerinə helikopteri vuran rus zabit cəzalandırıldı

***Rusiyanın Hava Hücumundan Müdafiə zabiti İqor Paşkov Ukrayna Silahlı Qüvvələrinin (AFU) Krım yarımadasına iddia edilən hücumunun dəf edilməsi prosesində göstərdiyi səhlənkarlığa görə cəzalandırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb.

Məlumata görə, rus zabit Ukrayna pilotsuz uçan aparatının əvəzinə Rusiyanın Mi-8 helikopterini vurub.

Hadisə nəticəsində 3 nəfər həlak



olub və helikopter Qara dənizə düşüb. Hərbçi 2 il 9 ay müddətinə cəzaçəkmə müəssisəsində qalıb. Məhkəmə Müdafiə Nazirliyinin ondan təxminən 200 milyon rublun (vurulan helikopterin dəyəri) geri alınması tələbini rədd edib.

Bundan başqa, hava hücumundan müdafiə bölməsinin operativ növbətçi komanda məntəqəsinin baş köməkçisi bir il müddətinə dövlət qulluğunda və yerli özünüidarəetmə orqanlarında təşkilati-inzibati funksiyaları təmin edən vəzifələr tutmaq hüququndan məhrum edilib.

***Ağarza Elçinoğlu***

# Ermənistanın Həqiqət və Ədalət Mərkəzi Bakıdan bunu xahiş etdi

***Ermənistanın Həqiqət və Ədalət Mərkəzi Azərbaycan hökumətinə müraciət ünvanlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Həqiqət və Ədalət Mərkəzinin prezidenti Qor Mnatsakanyan bildirib ki, mərkəz bir qrup beynəlxalq hüquqşünasın yanvarın 17-də başlayacaq erməni məhbusların məhkəmə proseslərində iştirak etmələri üçün Bakıya getməsinə icazə verməsini xahiş edib.

Azərbaycandan viza gözləyən beynəlxalq müşahidəçilər arasında Instituto Espacio para la Memoria və Atlantida Universitetinin İnsan Hüquqları Araşdırma İnstitutunun direktoru Ana Maria Carreaga, hüquqşünas, Argentina Vəkillər Kollegiyasının prezidenti, professor Klaudia Viviana Roka, Argentina Milli Universitetinin Plaza de Mayo və Moreno Milli Universitetinin professoru, hüquqşünas, insan hüquqları və beynəlxalq cinayət hüququ sahəsində ekspert, Buenos-Ayres, Ali Cinayət Məhkəməsinin keçmiş müxbiri, hüquq professoru İren Viktoriya Massimino və baş məsləhət-



çi, beynəlxalq cinayət hüquqşünası Avi Sinq var.

***Ağarza Elçinoğlu***

# SEPAH Qəzza razılaşmasını Fələstinin qələbəsi adlandırdı

***İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) bildirib ki, Qəzza zolağında atəşkəs sazişinin bağlanması Fələstinin danılmaz qələbəsi olub.***

"Unikal" xəbər verir ki, bu barədə IRNA agentliyi məlumat dərc edib.

"Bu gün müharibənin başa çatması və sionistlərə (İsrail, - red) qarşı atəşkəs rejiminin tətbiqi Fələstin üçün danılmaz və böyük qələbə, İsrail üçün isə daha böyük məğlubiyyətdir", - deyə agentlik SEPAH-dan sitat gətirib.

Xatırladaq ki, yanvarın 15-də Qəzza zolağında İrsail-HƏMAS arasında atəşkəs razılaşması əldə olunub.

***Gülayə Mecid***

02_27 IYUl-QARA.qxd 1/16/2025 10:15 PM Page 16



# Misli Premyer Liqasında XIX turun hakim təyinatları



***Misli Premyer Liqasının XIX turunda keçiriləcək qarşılaşmalara hakim təyinatları açıqlanıb.***

AFFA-dan "Unikal"a verilən məlumata görə, "Qarabağ" və "Şamaxı" komandaları arasında reallaşacaq turun açılış oyunu FIFA referisi Elçin Məsiyevə tapşırılıb.

**17 yanvar**

19:00. "Qarabağ" - "Şamaxı"
Tofiq Bəhramov adına Respublika Stadionu
Hakimlər: Elçin Məsiyev, Pərvin Talıbov, Asiman Əzizli, Fərid Hacıyev
VAR: Nicat İsmayıllı
AVAR: Eyyub İbrahimov
Hakim-inspektor: Babək Quliyev

**18 yanvar**

16:00. "Zirə" - "Araz-Naxçıvan"
Zirə İdman Kompleksi
Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Rəşad Əhmədov
VAR: Cavid Cəlilov
AVAR: Şirmamed Mamedov
Hakim-inspektor: Anar Salmanov
18:30 . "Sumqayıt" - "Səbail"
Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu.
Hakimlər: İnqilab Məmmədov, Namik Hüseynov, Rahil Ramazanov, Kamran Əliyev
VAR: Rauf Allahverdiyev
AVAR: Teymur Teymurov
Hakim-inspektor: Ramil Diniyev

**19 yanvar**

16:00. "Kəpəz" - "Turan Tovuz"
Tovuz şəhər stadionu.
Hakimlər: Rəvan Həmzəzadə, Cəmil Quliyev, Kamran Bayramov, Əli Əliyev
VAR: Rauf Cabbarov
AVAR: Rəhman İmami
Hakim-inspektor: Asim Xudiyev
18:30. "Neftçi" - "Sabah"
Neftçi Arena.
Hakimlər: Kamal Umudlu, Vüsal Məmmədov, Müslüm Əliyev, Əkbər Əhmədov
VAR: Tural Qurbanov
AVAR: Zöhrab Abbasov
Hakim-inspektor: Ömər Paşayev

# Ançelotti istədi, rəhbərlik əleyhinə çıxdı - "Real"da gərginlik

***Finalda "Barselona"ya uduzaraq (2:5) İspaniya Superkubokunu əldən verən "Real"da gərginlik get-gedə artır.***

QOL.az xəbər verir ki, bu mövsüm Kataloniya təmsilçisindən ümumilikdə 9 qol buraxan Madrid klubunun yoluna hazırkı baş məşqçisi Karo Ançelotti ilə davam edəcəyi bildirilirdi. Lakin İspaniya mətbuatında "Real"ın böhranın astanasında olduğuna dair xəbərlər yayılıb.



"Ondo Cero"nun məlumatına görə, Karlo Ançelotti qış transfer pəncərəsində yeni futbolçu alınmağını istəyib. Lakin klub rəhbərliyi bunun əleyhinə çıxıb.

Bir neçə gün əvvəl "Real"ın qış transfer pəncərəsində Trent Aleksander-Arnold ("Liverpul") da daxil olmaqla danışıqlar apardığı bütün futbolçulardan imtina etdiyi barədə xəbərlər yazılmışdı. Klub prezidenti Florentino Peres "Real"ın akademiyasının futbolçularına və komandanın gənc oyunçularına şans verməyi qərara alıb.

"Real"dakı daxili çəkişmələr səbəbindən Karlo Ançelottinin gələcəyi də şübhə altındadır.

Qeyd edək ki, "Real" hazırda La Liqanın turnir cədvəlində 43 xalla 2-cidir. Komanda lider "Atletiko"dan 1 xal geri qalır.




## PSJ-nin futbolçusu "Yuventus"a keçdi

***Fransa millisinin və PSJ komandasının futbolçusu Randal Kolo-Muani "Yuventus"a keçib.***

"Unikal" xəbər verir ki, 26 yaşlı hücumçu artıq İtaliyanın Turin şəhərinə gedib. Tərəflər öz aralarında bütün sənədləri imzalayıblar. Bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb.

Transferin bu gün rəsmi açıqlanacağı gözlənilir.

## "Lion" V liqa komandasına məğlub olaraq mübarizəni dayandırdı

***Futbol üzrə Fransa Kubokunda gözlənilməz nəticə qeydə alınıb.***

"Unikal" xəbər verir ki, Liqa 1 təmsilçisi "Lion" səfərdə V divizionda çıxış edən "Burqon-Jallieyu" komandasının qonağı olub. Görüşün əsas və əlavə vaxtı heç-heçə ilə yekunlaşdığı üçün penaltilər seriyası oynanılıb.

Burada daha dəqiq olan meydan sahibləri 1/8 final mərhələsinə yüksəlib - 3:2.



## "Şamaxı"dan yeni transfer

***"Şamaxı" qış fasiləsində növbəti transferini reallaşdırıb.***

Klubdan "Unikal"a verilən məlumata görə, bölgə təmsilçisi yarımmüdafiəçi Alfons Msanqa Mabulanı heyətinə qatıb. Tanzaniyalı oyunçu ilə il yarımlıq (6 ay + 1 il) müqavilə imzalanıb.

Qeyd edək ki, 21 yaşlı futbolçu Serbiyanın "Spartak" (Subotitsa) klubuna məxsus olub, son olaraq icarə əsasında həmin ölkənin "Novi Sad" klubunda çıxış edib.



## İspaniya Kral Kubokunda iki komanda növbəti mərhələyə yüksəldi

***İspaniya Kral Kubokunda 1/8 final mərhələsinin oyunları keçirilib.***

"Unikal" xəbər verir ki, "Leqanes" "Almeriya"nı (3:2), "Xetafe" isə "Pontevedra"nı (1:0) məğlub edib.

Bununla da, komandalar adlarını 1/4 finala yazdırıb.

## "Portu" belaruslu hücumçunu heyətinə qatdı

***"Portu" heyətinə belaruslu futbolçu qatıb.***

"Unikal" klubun mətbuat xidmətinə istinadən xəbər verir ki, Minsk "Dinamo"sunun üzvü Trofim Melniçenko Portuqaliya nəhənginin sıralarına cəlb edilib.




18 yaşlı mərkəz hücumçusu bir müddət komandanın əvəzedicilərində oynayacaq.

Müddəti 2028-ci ilin yayınadək nəzərdə tutulan müqaviləyə imza atan gənc oyunçunun transferi "əjdahalar"a 380 min avroya başa gəlib.

## Kloze Emrelidən nə tələb edib?

***"Nürnberq" klubunun hücumçusu Mahir Emreli ilə baş məşqçi Miroslav Kloze arasında növbəti fikir ayrılığı yaranıb.***

QOL.az xəbər verir ki, bu barədə Almaniyanın "Bild" nəşri məlumat yayıb.

Bildirilir ki, bu, M.Emrelinin oyunu ilə əlaqədardır. Məlumata görə, bugünlərdə "İnqolştadt"a qarşı yoxlama matçında rəqib üçüncü liqa təmsilçisi olsa da, Kloze Emreliyə xüsusi nəzarət edib. Bildirildiyinə görə, top rəqibdə olarkən Emrelinin oyunu baş məşqçini həmişə razı salmırdı.

Qəzet yazır ki, Emreli qol vurmağına baxmayaraq, Kloze bir neçə dəfə uca səslə azərbaycanlı futbolçudan daha fəal olmağı və rəqibləri üzərinə daha intensiv hücum etməyi istəyib.

"Beləliklə, texniki cəhətdən güclü, lakin bir qədər özünəməxsus hücumçu Klozenin etimadını tam qazanmaq üçün mübarizəni davam etdirməli olacaq" - deyə qəzet yazır.

Nəşr güman edir ki, M.Emreli bu həftənin bazar günü "Karlsue"yə qarşı keçiriləcək 18-ci turun oyununda da ehtiyatda qalacaq.

Qeyd edək ki, M.Emreli 17-ci turda "Ayntraxt"la oyunda ehtiyatda qalıb.